**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**A.A.BAKIXANOV adiına TARİX İNSTİTUTU**

*Əlyazması hüququnda*

**ABIŞOV VAQİF ŞİRİN oğlu**

# ŞİMALİ AZƏRBAYCANDA SOVET HAKİMİYYƏTİ QURULMASININ TARİXŞÜNASLIĞI

İxtisas: 5503.02 – Vətən tarixi
5509.01 – Tarixşünaslıq, mənbəşünaslıq və tarixi tədqiqat üsulları

Tarix üzrə elmlər doktoru elmi dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyanın

# A V T O R E F E R A T I

**BAKI – 2018**

**Dissertasiya Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix Institutunun "Azərbaycan xalqına qarşı soyqırımları tarixi" şöbəsində yerinə yetirilmişdi.**

**Elmi məsləhətçi:**
Dövlət Mükafatı Laureatı,
Əməkdar elm xadimi,
AMEA-nın həqiqi üzvü **Y.M. Mahmudov**

**Rəsmi opponentlər:**

Tarix üzrə elmlər doktoru, professor **İ.M. Musa**
Tarix üzrə elmlər doktoru, professor **M.N. Quluzadə**
Tarix üzrə elmlər doktoru **A.Ə. Paşayev**

**Aparıcı təşkilat:** Azərbaycan Dövlət Pedaqoji Universiteti "Azərbaycan tarixi" kafedrası

Müdafiə Azərbaycan Milli Elmlər Akademiyasının A.A.Bakıxanov adına Tarix İnstitutunun nəzdində 5503.02 – Vətən tarixi, 5509.01 – Tarixşünaslıq, mənbəşünaslıq və tarixi tədqiqat üsulları ixtisasları üzrə tarix üzrə elmlər doktoru və tarix üzrə fəlsəfə doktoru elmi dərəcə almaq üçün təqdim olunan dissertasiçyaların müdafiəsini keçirən D.01.161 Dissertasiya Şurasının "____" "_________" 2018 il tarixli iclasında saat "____"-da keçiriləcəkdir.

Ünvan: Bakı – AZ 1143, pr. H.Cavid, 115.

Dissertasiya ilə Azərbaycan Milli Elmlər Akademiyasının A.A.Bakıxanov adına Tarix İnstitutunun Elmi Arxivində tanış olmaq mümkündür.

Avtoreferat "____" __________ 2018-ci ildə göndərilmişdir.

Dissertasiya Şurasının
elmi katibi t.ü.f.d., dosent: **C.Ə.Bəhramov**

# I. DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Müasir Azərbaycan tarixinin bütün sahələrinə, xüsusən 1917-1920-ci illərdə baş vermiş tarixi hadisələrə, Azərbaycanın müstəqillik dövrü tarixindən çıxış edərək, yenidən baxılmasına çox böyük ehtiyac var. Bu baxımdan “Şimali Azərbaycanda sovet hakimiyyəti qurulmasının tarixşünaslığı” mövzusu olduqca aktualdır.

Dissertasiyası mövzusu Azərbaycan, Rusiya, mühacirət, Türkiyə və qərb tarixşünaslığının həmişə maraq dairəsində olmuşdur. Ona görə də 1917-1920-ci illərin ictimai-siyasi hadisələri, yalnız sovet tarix elmi üçün deyil, eləcə də mühacirət, Türkiyə və qərb tarixşünaslığı üçün həmişə öz aktuallığını saxlamışdır. Tədqiq olunan problem müasir Azərbaycan və Rusiya tarixşünaslığı üçün də öz aktuallığını saxlamaqdadır.

Dissertasiya müəllifi sovet tarix elmində tarixşünaslıq prinsiplərinin – obyektivlik, tarixçilik, dəyərlilik və b. prinsiplərin pozulmasını ideoloji sistemin sərt qayda-qanunları ilə əlaqələndirmişdi.

Azərbaycan ziyalıları 1917-ci ilin fevral inqilabından sonra demokratik, federativ Rusiya tərkibində Azərbaycanın muxtariyyəti fikrini irəli sürmüş, lakin 1918-ci ilin martında ermənilər tərəfindən türk-müsəlman əhaliyə qarşı həyata keçirlən kütləvi soyqırımlardan sonra isə müstəqillik uğrunda mübarizəyə başlamışdır. Belə bir dövrdə Cənubi Qafqazda və beynəlxalq aləmdə yaranmış siyasi vəziyyəti düzgün qiymətləndirməyi bacaran vətənpərvər qüvvələr 1918-ci ilin may ayında Azərbaycan Xalq Cümhuriyyətini elan etmişdilər.

SSRİ dağılandan sonra, əvvəllər həmin imperiyanın tərkibində olan respublikalarda da tarix elminə münasibət tamamilə dəyişməyə başladı. Rusiya tarixçisi A.K. Sokolov yazır ki, siyasi-ideoloji məhdudiyyətlərin və senzuranın aradan qalxması; mənbələrə çıxış imkanlarının genişlənməsi; arxivlərin tam olmasa da, hər-halda onların bir qisminin açılması və s. məsələlər indiki Rusiyada tarix elminin inkişafına təsir edən əsas amillərdəndir[1]. A.K. Sokolovun qeyd etdiyi amilləri müasir Azərbaycan tarix elminə də aid etmək mümkündür. XX əsrin 80-ci illərin sonu – 90-cı illərin əvvəllərində Azərbaycan tarix elmində baş verən dəyişikliklər dövlət müstəqilliyinin yenidən bərpa edilməsi ilə bağlı idi. Dövlət müstəqilliyinin

---

[1] Соколов А.К. Основные тенденции современной российской историографии в изучении новейшей истории страны /Идеи академика И.Д. Ковальченко в XXI веке. Материалы IV научных чтений памяти академика И.Д. Ковальченко. М.: 2009, с.187-193. http://iriran.ru/files/sok.doc

bərpa olunması ilə vətən tarixinin bütün mərhələlərinə yenidən baxılmasını və tarixi hadisələrin olduğu kimi yazılmasını zəruri etmişdir. Bu gün Azərbaycan tarixçilərinin qarşısında xalqın təhrif olunmuş tarixinin yenidən yazılması kimi mühüm bir vəzifə durur. Ümumiyyətlə, keçmişə maraq bu günümüzü başa düşməyə cəhd göstərməkdi[2].

Beləliklə, bu gün tədqiqata cəlb olunan problemin elmi cəhətdən araşdırılmasını aktual edən şərtləri aşağıdakı kimi sıralamaq mümkündür:

- 1917-ci ildə Rusiyada baş vermiş fevral inqilabı və oktyabr çevrilişindən sonra Cənubi Qafqazda, o cümlədən Şimali Azərbaycanda 1917-1919-cu illərin və 1920-ci ilin tarixi hadisələrinin doğru-dürüst yazılmasına ehtiyacın yaranması yenidən belə bir mövzuya müraciət olunmasını aktual etmişdir;

- Rusiyada oktyabr çevrilişi və Şimali Azərbaycanda 1920-ci il 28 aprel işğalının tarixi Azərbaycan sovet tarxşünaslığında həmişə öz aktullığını saxlamışdı;

- istər Qərb, istərsə də mühacirət tarixşünaslığını 70 il Sovet tarix elminə qarşı alternativ bir tarixşünaslıq kimi dəyərləndirmək mümkündür. Bu alternativ tarixşünaslığa qarşı mübarizə aparan sovet tarix elmində tədqiq olunan movzu həmişə öz aktuallığını saxlamışdır;

- Sovet tarix elmi mühacirət tarixşünaslığına qarşı mübarizə aparsa da, ona qalib gələ bilməmiş və sonda sosializm sisteminin çökməsi ilə tarixi həqiqətlər bərqərar olmuş, "Bir kərə yüksələn bayraq bir daha enməz" şüarı döğru şüar olduğu sübut olunmuşdur. Ümumiyyyətlə, AXC-nin süqutu və Azərbaycanda sovet hakimiyyətinin qurulması məsələsi mühacirət tarixşünaslığı üçün həmişə aktual olmuşdur;

- 1991-ci ildən keçən 25 il ərzində böyük sayda xarici ədəbiyyatın elmi dövriyyəyə gətirilməsi bu mövzuya yenidən müraciət olunmasını zəruri etmiş və həmin dövrün elmi-tədqiqat əsərlərinin nəzərdən keçirilməsinə şərait yaratmışdı. Həmin əsərlərin müqayisəli şəkildə nəzərdən keçirmək, təhlil etmək və bir dissertasiya şəklində araşdırmaq vaxtı artıq çoxdan gəlib çatıb. Ona görə də dissertasiya işi çox aktualdır;

- müasir Rusiya tarixçilərinin 1917-1920-ci illərdə Qafqazda, o cümlədən Şimali Azərbaycanda baş vermiş tarixi hadisələri özündə əks etdirən elmi-tədqiqat əsərlər yazmaları, dissertasiya mövzusunun aktuallığını göstərən əsas amillərdən hesab etmək olar;

---

[2] Гофф Ж.Ле. История и память. М.: Рооссийская политическая энсиклопедия (РОССПЭН), 2013, 303 с. С. 16.

- 1917-1920-ci illərdə baş vermiş ictimai-siyasi hadisələr haqqında Türkiyə tarixçilərinin yazmış olduqları əsərlər öz aktuallığını bu gün də saxlamaqdadır. Bu aktuallıq həm ideoloji baxımdan, həm də elmi nöqteyi-nəzərdən olduqca əhəmiyyətlidir;

- XX əsrin sonlarında Ermənistanın Azərbaycan torpaqlarına hərbi təcavüzü və bu təcavüzün nəticəsində 20 faizdən çox ərazinin işğal olunması, bir milyona qədər dinc insanın öz doğma torpaqlarından didərgin düşməsi, Azərbaycanın müstəqilliyinə qarşı bəzi region dövlətlərindən təhdidlərin gəlməsi, gələcəkdə də bu cür halların baş verə bilməsi təhlükəsi mövzunun dərindən öyrənilməsini aktual etmiş olur;

- XX əsrin sonları və XXI əsrin ilk iki onilliyində Rusiya və Ermənistanın bəzi tarixçiləri tərəfindən Azərbaycanın müstəqilliyini şübhə altına alan əsərlər nəşr etdirmələri, Azərbaycan Respublikasına qarşı ərazi iddiaları ilə çıxış etmələri, eləcə də müasir dövrdə Rusiya Federasiyası və Azərbaycan Respulikasında bəzi qüvvələrin keçmiş SSRİ-ni bərpa etmək çağrışları və buna cəhd etmələri bu mövzunun nə qədər aktual olduğunu gündəmə gətirmiş olur;

- müasir dünyamızda baş verməkdə olan müharibələr, terror hadisələri, dövlət çevrilişləri və bu hadisələrin nəticəsi olaraq, minlərlə dinc insanın faciəli ölümü, şəhər və kəndlərin, o cümlədən mədəniyyət abidələrinin dağıdılması və başqa bu kimi hadisələr tədqiq olunan mövzunun nə qədər aktual olduğunu göstərir.

**Tədqiqatın xronoloji çərçivəsi.** Mövzunun xronoloji çərçivəsi 1917-1920-ci illəri əhatə edir. Əsərdə aşağı hədd 1917-ci il ona görə götürülüb ki, bu dövrdə Rusiyada baş vermiş fevral və oktyabr inqilabları Bakıda hakimiyyətə iddialı olan bir çox təşkilatların yaranmasına, əvvəllər mövcud olmuş partiyaların fəallaşması və həmin təşkilatlar arasında ciddi siyasi mübarizənin getməsinə səbəb olmuşdur. Məsələn, buna misal olaraq Bakıda fəaliyyət göstərmiş və Müvəqqəti hökuməti təmsil edən İctimai Təşkilatların İcraiyyə Komitəsini, Fəhlə və Əsgər deputatları Sovetini, ayrı-ayrı millətləri təmsil edən Milli Şuraları və partiyaları göstərmək olar.

Dissertasiyada yuxarı hədd 1920-ci il ona görə götürülüb ki, bu dövrdə, bolşevik Rusiyasının hərbi təcavüzü nəticəsində AXC hakimiyyəti devrilmiş və bununla da Azərbaycanda sovet hakimiyyəti qurulmuşdur. 1920-ci il aprel ayının 28-də Şimali Azərbaycan işğal olunandan sonra Azərbaycanda "müstəqil" sovet hakimiyyəti qurulmuş, lakin 1920-ci ilin may-dekabr aylarında Azərbaycan SSR ilə RSFSR hökumətləri arasında bağlanmış müqavilələr bu "müstəqilliyin" förmal olduğunu sübut etmişdi.

**Mövzunun öyrənilmə vəziyyəti.** Tarixşünaslıq elmi bəzən tarixi biliyin inkişafını öyrənən, bəzən də tarix elminin tarixi kimi qiymətləndirilir. Müxtəlif illərdə yazılmış əsərlərin təhlil olunması əsil tarixi həqiqətlərin üzə çıxarılmasına köməklik edir.

Sovet dövründə Cənubi Qafqazda baş vermiş 1917-1920-ci illərin tarixi hadisələrini geniş şərh edən çoxsaylı elmi-tədqiqat əsərləri yazılmışdır. Buna misal olaraq sovet dövründə, yalnız Azərbaycanla əlaqədar olaraq nəşr olunmuş biblioqrafik kitablara baxmaq kifayətdir. Məsələn, 1967-ci ildə "Böyük Oktyabr sosialist inqilabı"nın 50 illiyi ilə əlaqədar olaraq Y.H. Səfərovun və A.İ. Xəlilovun redaktorluğu ilə "Böyük Oktyabr və Azərbaycan" (kitab həm Azərbaycan, həm də Rus dilində yazılmışdır) adlı kitab nəşr olunmuşdur. Kitabda 1920-1960-cı illərdə "Böyük oktyabr sosialist inqilabı" və 1920-ci il 28 aprel işğalı ilə əlaqədar yasılmış əsərlərin biblioqrafik siyahısı verilmişdi. Bu əsərlərin böyük bir hissəsi 1950-1960-cı illərdə yazılmışdır[3].

Tədqiq olunan mövzuya müxtəlif dövrlərdə həsr olunmuş monoqrafiya və məqalələrin təhlili onu göstərir ki, ayrı-ayrı tarixçilərin problemin dövrləşdirilməsinə yanaşması müxtəlif olmuşdur. Məsələn, bəzi tarixçilər sovet tarix elmini bir neçə əsas mərhələyə - 1920-1930-cu illərin ortalarınadək; 1930-cu illərin ortalarından - 1950-ci illərin ortalarınadək; 1950-ci illərin ortalarından-1980-ci illərin sonlarınadək – bölmüşdü.

Ümumilikdə isə, sovet tarixşünaslıq elmi kommunist ideologiyası xəttinə uyğun olaraq, 1920-1930-cu illərdə hazırlanmağa başlanmış, 1940-1980-ci illərdə bu proses inkişaf etdirilərək müəyyən sistem halına salınmışdır.

A.İsgəndərov, 1920-1930-cu illərdə Azərbaycan tarixinin 1917-1920-ci illər dövrünün problemlərini tədqiq edən sovet tarixçilərinin əksəriyyəti 1930-cu illərin kütləvi repressiyaları ilə üzləşdiklərinə görə, vahid bir xətdən kənara çıxma halları istisna olunmağa başladığını, 30-cu illərin sonu 40-cı illərin əvvəllərindən başlayaraq vahid marksist-leninçi konsepsiya, demək olar ki, bərqərar olduğunu yazmışdı [4].

K.Şükürov 1998-ci ildə yazdığı "Azərbaycan tarixi. Ən qədim zamanlardan bizim günlərədək: dövrlər, hadisələr, sinxronlaşdırılmış cədvəllər" adlı 3 cildlik əsərinin II cildində ilk dəfə olaraq Azərbaycan tarixşünas-

---

[3] Böyük Oktyabr və Azərbaycan. /Y.H. Səfərov və A.İ. Xəlilovun redaktəsi ilə. Bakı: Azərbaycan SSR EA nəşriyyatı, 1967, 170 s.

[4] İsgəndərov A.S. Azərbaycan türk-müsəlman soyqırımı probleminin tarixşünaslığı. Bakı: Adiloğlu, 2006, 396 s. S.130.

lığında dövrləşdirməyə yeni yanaşma təklif edir [5]. Müəllif 1917-1920-ci illərin dövrləşdirməsini belə təklif edir: "Rusiyanın burjua hakimiyyətinin devrilməsindən Azərbaycan Demokratik Respublikasınadək və ya Azərbaycanda birinci ikihakimiyyətlilik: Zaqafqaziya hökuməti və Bakı Soveti (1917-ci il oktyabr – 1918-ci il may); birinci respublika dövrü-1918-1920-ci illər. İkinci ikihakimiyyətlilik: ADR-Bakı XKS. 1918-ci il may-iyun; üçüncü ikihakimiyyətlilik: ADR-Sentrokaspi diktaturası. 1918-ci il iyun-sentyabr; ADR-in Şimali Azərbaycanda hakimiyyətini bərqərar etməsi. 1918-1920-ci il aprel"[6].

Yeddi cildlik "Azərbaycan tarixi"nin V cildində 1917-1920-ci illər tarixşünaslığı üç dövrə bölünür: "20-30-cu illərin marksist tarixşünaslığı, 40-80-ci illərin milli kommunist tarixşünaslığı, 90-cı illərin liberal-milli tarixşünaslığı"[7].

Ümumiyyətlə, Azərbaycan tarixinin dövrləşdirilməsi, eləcə də onun tarixşünaslığı ilə əlaqədar olaraq elmi müzakirələrin, konfransların keçirilməsi vacibdir. Çünki müasir Azərbaycan tarixşünaslığı bunu tarixçilərdən tələb edir.

1917-1920-ci illərin tarixi hadisələri ilə əlaqədar olaraq 1920-1930-cu illərdə əsərlər yazan sovet tarixçilər[8] marksizm-leninizm konsepsiyasını

---

[5] Şükürov K.K. Azərbaycan tarixi. II hissə. Ən qədim zamanlardan bizim günlərədək: dövrlər, hadisələr, sinxronlaşdırılmış cədvəllər. 3 cildə II c. Bakı: Şirvannəşr, 1998, 480 s.

[6] Yenə orada, s. 26.

[7] Azərbaycan tarixi. 7 cilddə, V c., Bakı: Elm, 2001, 672 s. S. 10.

[8] Сеф С.Е. Как большевики пришли к власти в 1917-18 гг. в Бакинском Районе. Баку: АЗГИЗ, 1927, 62 с.; Революция в 1917 года в Закавказье (документы и материалы). Тбилиси: Акционерное общество, ЗакКнига, 1927, 391 с.; Борьба за Октябрь в Закавказье. Тбилиси: ЗакКнига, 1932, 162 с.; Революционный пролетариат Баку в борьбе за власть. Баку: Партиздат, 1934,21 с.; Ратгаузер Я. Революция и гражданская война в Баку. Часть первая. 1917-1918 гг. Баку: Красный Восток, 1927, 221 с.; Борьба за советский Азербайджан. К истории апрельского переворота. Баку: Типография «3-й Интернационал», 1928, 70 с.; Шаумян С.С. Бакинская коммуна. Баку: Красный Восток, 1927, 118 с.; Раевский А. Английские «Друзья» и Мусаватские «патриоты». Баку: АЗГИЗ, 1927, 70 с.; Иткин С. Очерки по истории профдвижения в г. Баку и его районах. 1917-1920 г. Баку: Издание РИО А.С.П.С., 1927, 59 с.; Штейн Г. Бакинская Коммуна. Баку: Красный Восток, 1928, 82 с.; Азербайджан. Москва-Ленинград, Госиздата РСФСР, 1929, 102 с.; Пчелин Н. Крестьянский вопрос при Мусавате. (1918-1920).

yaradan ilk tarixçilər olmuşdular. Onların tədqiqatları gələcək tarixçilər üçün bir istinad materialları olmuşdur. Lakin 1930-cu ilin ikinci yarısından, yəni Stalin repressiyaları başlayandan sonra tarixi hadisə və faktların saxtalaşdırılmasına başlanılmışdır. Artıq 1930-cu illərin ikinci yarısından 1980-ci illərin sonlarına qədər yazılan bir çox tarixi əsərlər [9] vahid marksizm-leninizm konsepsiyası çərçivəsindən kənara çıxmadan yazılmışdır. Bu dövrdə hər yazılan əsər "formaca milli və məzmunca sosialist" prinsiplərini özündə əks etdirməli və bu prinsiplərə əməl etməyən tarixçilərin taleyi mühacirətə getmək, Sibirə sürgün və uzun müddətli həbsxana həyatı yaşamaq məcburiyyətində qalamalı idi.

1920-1930-cu illərdə Azərbaycanın dövlət adamları tərəfindən yazılmış əsərlərin də əhəmiyyətini qeyd etmək lazımdır [10]. Həmin əsərlər bəzi

---

Баку: Изд.-во АЗГНИИ, 1931, 65 с.; Дубнер А. Бакинский пролетариат в годы революции. (1917-1920). Баку: Изд.-во АЗГНИ, 1931, 181 с.

[9] Бурджалов Э. Двадцать шесть Бакинских комиссаров. М.:Государственное издательство политической литературы, 1938, 112 с.; Milman A.Ş. Bakı Soveti – Azərbaycanda proletar diktaturası orqanıdır (oktyabr 1917-ci il – iyul 1918-ci). Bakı: Azərnəşr, 1957, 152 s.; Кадищев А.Б. Интервенция и гражданская воцна в Закавказье. М.: Воениздат, 1960, 510 с.; Чичерин Г.В. Статьи и речи по вопросам международной политики. М.: Изд.-тво социально-экономической литература, 1961, 516 с.; Лифшиц Л.М. Героический подвиг Бакинских большевиков. Баку: Азернешр, 1964, 290 с.; Махарадзе Н.Б. Победа социалистической революции в Грузии. Тбилиси: Изд. Сабчота сакартвело, 1965, 450 с.; Дудин И.Г. Прорыв бронепоездов. Баку: Азернешр, 1970, 65 с.; Микоян А.И. Мысли и воспоминания о Ленине. М.: Политиздат, 1970, 253 с.; Бурджалов Э. Вторая русская революция. М.: Наука, 1971, 463 с.; Зенушкина И.С. Советская национальная политика и буржуазные историки. М.: Изд.-во Мысль, 1971, 285 с.; Микоян А.И. Дорогой борьбы. Кн.1. М.:Изд.-во Политической литература, 1971, 590 с.; Смирнов Н.Г. Расстреляны на рассвете. Баку: Азернешр, 1979, 125 с.; Емельяanov В.С. На заре новой жизни. Баку: Азернешр, 1979, 251 с.; Историография истории СССР (Эпоха социализма). Под редакцией академика И.И.Минца. М.: Высшая школа, 1982, 336 с.; Lenin V.İ. Əsərlərin tam külliyyatı. Bakı: Azərnəşr, 1982, 642 s.; Минц И.И. Год 1918-й. М.: Издательство Наука, 1982, 576 с.; Смирнов Н.Г. Ушедшие в бессмертие. М.: Юрид. лит., 1986, 205 с.; Смирнов Н.Г. Бакинская коммуна и ее комиссары. М.: Знание, 1987, 63 с.

[10] Hüseynov T. Aprel inqilabı (Azərbaycanda Şura hökumətinin altı illiyinə). Bakı: АЗГИЗ, 1926, 168 s; Hüseynov T. Azərbaycan aprel inqilabı və qadınlar. Şərq qadını, 1927, № 4, s.1-3; Гусейнов Т. Октябрь в Азербайджане. Баку: АЗГИЗ, 1927, 28 с.; Гусейнов М.Д. Партия «Мусават» в прошлом и настоящем. Баку:

hallarda mənbə rolunu oynamış və o dövrün tarixi hadisələrinə düzgün qiymət verilməsinə şərait yaratmışdır.

XX əsrin 40-cı illərin ikinci yarısı 1950-ci illərdən başlayan Azərbaycan tarixşünaslıq da vahid marksizm-leninizm konsepsiyasının qarşıya qoyduğu prinsiplərdən kənara çıxmamış və yazılan tarixi əsərlərdə rus xalqının və sovet ordusunun "qardaşlıq" yardımı sayəsində Azərbaycanda sovet hakimiyyətinin qurulduğu göstərilmişdir [11].

1917-1920-ci illərdə Azərbaycanın ayrı-ayrı qəzalarında sovet hakimiyyətinin qurulması ilə əlaqədar olaraq XX əsrin 60-80-ci illərində bir sıra elmi-tədqiqat əsərləri yazılmışdır[12]. Bu əsərlərin ümumi ideya xətti

---

Заккнига, 1927, 85 с.; Караев А.Г. Бакинский пролетариат и азербайджанская деревня (Доклад на ХУ111 общебакинской партийной конфренции). Баку: Бак. Рабочий, 1929, 77 с.; Караев А.Г. Из недавного прошлого (материалы по истории Азербайджанской Компартии большевиков). Баку: Бак. Рабочий, 1926, 132 с.; Гусейнов М.Д. Как произошла советизация Азербайджана.Тифлис: Заря Востока, 1923, 28 с.; Кулиев М. Враги Октября в Азербайджане. Баку: АЗГИЗ, 1927, 53 с.; Мусабеков Г. Октябрьская революция и основные достижение Советской власти в Азербайджане (К 10-летию Октября). Баку: АЗГИЗ, 1927, 68 с.; Бегак Р. Суд над англичанами, сдавшими Баку туркам в 1918. Баку: Азербайджанское государственное изд.-ство, 1927, 72 с.

[11] Багиров М.Д. Незабываемые страницы истории. Баку: Издание Азерб. Филиала ИМЭЛ при ВКП(б), 1948, 12 с.; Токаржевский Е.А . Из истории иностранной интервенции и гражданской войны в Азербайджане. Баку: Изд.-ство Акад.наук Азерб. ССР, 1957, 331 s.; Токаржевский Е.А. Очерки из истории Азербайджана 1920-1925 гг. Баку: Изд.-ство Акад.наук Азерб. ССР, 1950, 234 с; İbrahimov Z.İ. Sosialist inqilabı uğrunda Azərbaycan zəhmətkeşlərinin mübarizəsi (1917-1918-ci illər). Bakı: Azərnəşr, 1957, 585 s.; Quliyev C.B. V.İ.Lenin və Azərbaycanda sovet hakimiyyətinin qələbəsi və möhkəmlənməsi uğrunda mübarizə. Bakı: Azərnəşr, 1957. 74 s.; Əlimirzəyev X. Sovet Azərbaycanı Böyük Oktyabr sosialist inqilabının yetişdirməsidir. Bakı: Azərnəşr, 1958, 232 s.; Искендеров М.С. Из истории борьбы коммунистической партии Азербайджана за победу Советской власти. Баку: Азернешр, 1958, 538 с.; Mədətov Q.Ə. Naxçıvanda Sovet hakimiyyətinin qələbəsi və Naxçıvan MSSR qurulması. Bakı: Azərnəşr, 1958, 164 s.

[12] Азизбекова П.А. Руководство В.И.Ленина социалистическим строительством в Азербайджане. 1920-1923. Баку, Издательство Академии Наук Азербайджанской ССР, 1960, 265 s.; Rəhimov Ə.C. 1920-ci ildə Azərbaycanda mülkədar torpaq sahibliyinin ləğvi. Bakı: Azərb.SSR EA nəşriyyatı, 1962, 210 s.; Əlizadə N.İ. Lənkəran qəzası zəhmətkeşlərinin sovet hakimiyyətinin

dəyişməz olaraq qalırdı. Yəni hər bir əsər vahid marksizm-leninizm konsepsiyasının tələbləri çərçivəsindən kənara çıxmadan yazılmışdır. Bu konsepsiyanın əsas ana xətti isə: "kommunist partiyasının rəhbərliyi altında və böyük rus xalqının qardaşlıq köməyi sayəsində Azərbaycan zəhmətkeşləri 1920-ci il aprelin 28-də zülümkar müsavat hökumətini həmişəlik yıxdılar və Azərbaycanda Sovet hakimiyyəti qurdular"[13].

---

qələbəsi və möhkəmlənməsi uğrunda mübarizəsi tarixindən. Bakı: Azərnəşr, 1963, 111 s.; Əliyev P. Qarabağ bolşevikləri sovet hakimiyyətinin qələbəsi uğrunda. Bakı: Azərnəşr, 1963, 106 s.; Миралаев Т.С. Руководство большевиков революционным движением крестян в Гянджинском и Казахском уездах. Баку: Азернешр, 1967, 88 с. Ахундов В.Ю. Дорогой Октября. Москва, Изд.-во Знание, 1967, 45 с.; Bayramov Q.M. Azərbaycanda Sovet hakimiyyəti uğrunda mübarizə dövründə Bakı mədən-zavod komissiyaları. Bakı: Azərbaycan Elmlər Akademiyası nəşriyyatı, 1968, 186 s.; Quliyev Ə.N. V.İ.Lenin və Azərbaycan. Bakı: Azərnəşr, 1960, 46 s.; Əhmədov X. Azərbaycanda Sovetlərin yaradılması və möhkəmləndirilməsi. Baki: Azərb.SSR EA Nəşriyyatı, 1966.; Əlizadə N. Böyük xalq inqiabı. Bakı: Azərnəşr, 1966, 94 s.; Багиров Ю.А. Из истории советско-турецких отношений (1920-1922 гг). Баку: Изд. Академии наук Азербайджанской ССР, 1965, 142 с.; İbrahimov Z.İ. V.İ.Lenin və Azərbaycanda sosialist inqilabının qələbəsi Bakı: Azərnəşr, 1970, 523 s.; Əzimov H.S. Azərbaycan qəzalarında Sovetlər (1917-1918-ci illər). Bakı: Elm, 1971, 126 s; Əzimov H.S. İnqilab dövründə Azərbaycanda kəndli təşkilatları və sinfi mübarizə. Bakı: Elm, 1976, 37 s.; Əliyev X. Azərbaycanda sosialist inqilabının bəzi xüsusiyyətləri. Bakı: Azərnəşr, 1970, 118 s.; Сумбатзаде А.С. Социально-экономические предпосылки победы Советской власти в Азербайджане. М.: Изд-во Наука, 1972, 252 с.; Köçərli T.K. Tarixi saxtalaşdıranlar əleyhinə. Bakı: Azərnəşr, 1972, 181 s.; Кочарли Т.К. Исторический поворот в судьбах азербайджанского народа. Баку: Азгос. изд., 1980, 270 с.; Азимов Г.С. Великий октябрь в Азербайджане. Баку: Азернешр, 1987, 320 с.; Rəfiyev X. Böyük Oktyabr və Azərbaycan bolşevik mətbuatı. Bakı: Azərnəşr, 1987, 202 s.; Məmmədov N.Z. Böyük Oktyabr və Azərbaycanda Sovet hakimiyyətinin qələbəsi. Bakı: 1987, 57 s.; Сумбатзаде А.С. Азербайджанская историография XIX-XX веков. Баку: Элм, 1987, 316 с.; İbrahimova A.Z. Azərbaycan Böyük Oktyabr sosialist inqilabının hazırlanması dövründə (mart-oktyabr 19117-ci il). Bakı: Azərbaycan Universiteti nəşriyyatı, 1988, 80 s.

[13] Əlizadə N.İ. Lənkəran qəzası zəhmətkeşlərinin sovet hakimiyyətinin qələbəsi və möhkəmlənməsi uğrunda mübarizəsi tarixindən..., s, 109.

1917-1920-ci illərin tarixi hadisələrinin dərindən təhlil edilməsində sənədlər külliyyatı, məqalələr toplusu və dərs vəsaitlərinin də əhəmiyyəti olduqca qiymətlidir[14].

Problemin daha geniş və obyektiv tədqiq olunması müasir vətən tarixşünaslığında xüsusi əhəmiyyət kəsb etmiş və bu gün də kəsb etməkdədir. Bunun da ən başlıca səbəblərindən biri Şimali Azərbaycanda sovet hakimiyyətinin qurulması tarixinin doğru-dürüst yazılmasına ehtiyacın olması ilə əlaqədar idi.

1997-ci ilin yanvar ayında Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev Azərbaycan Milli Elmlər Akademiyasının rəhbərliyi, həqiqi və müxbir üzvləri, institut direktorları və aparıcı alimləri ilə görüşdə nitqində demişdi: "Belə hesab edirəm ki, indi akademiyanın qarşısında

---

[14] Azərbaycan tarixi. 3 cilddə, III c., Bakı: Elm, 1973, 598 s.; Kommunizm uğrunda mərd mübarizələr. Bakı: Azərnəşr, 1968, 80 s. Борьба за победу советской власти в Азербайджане. 1918-1920. Документы и материалы. Баку: Изд.-во АН Азерб. ССР, 1967, 568 с.; Очерки истории исторической науки в СССР. T.VII, Москва, 1968, 87 с.; Azərbaycan tarixinə dair materiallar. VII c. Baki: Azərbaycan SSR EA Nəşriyyatı, 1968, 101 s.; Azərbaycan tarixi və mədəniyyətinin burjua saxtalaşdırıcılarına qarşı. Ə.S.Sumbatzadənin redaktəsi ilə. Bakı: Elm, 1978, 219 s.; Azərbaycan Kommunist partiyasının tarixi oçerkləri. I c., XIX əsrin 80-ci illəri – 1920-ci il aprel. Bakı: Azərnəşr, 1985, 480 s.; История Азербайджана. Баку: Изд.-во Элм, 1979, 240 с. ; Советский Азербайджан: Мифы и действительность. Под ред. Р.Э.Мехтиева. Баку: Элм, 1987, 392 с.; Böyük Oktyabr ideyalarının Azərbaycanda təntənəsi. Azərbaycan SSR EA prezidenti, akademik E.Y.Salayevin redaktəsi ilə. Bakı: Elm, 1987, 352 s.; Böyük Oktyabr sosialist inqilabının 40-cı ildönümünün bayram edilməsinə hazırlıq haqqında Sov.İKP MK-nın qərarı. Bakı: Azərnəşr, 1957, 14 s.; Azərbaycan Sovet Ensiklopediyası. 10 cilddə, IV c., Bakı, 1980, 592 s.; Azərbaycanda sovet hakimiyyəti orqanlarının yaradılması və fəaliyyəti. Bakı: Azərbaycan Dövlət Universiteti, 1984, 94 s.; Böyük Oktyabr və Azərbaycanda Sovet hakimiyyətinin qələbəsi (1917-1920-ci illər). Bakı: Azərnəşr, 1988, 222 s.; Дорогой свободы и счастья. Баку: Азербайджанское государственное издательство, 1967, 233 с.; Azərbaycan Kommunist Partiyasının qurultayları, konfransları və MK plenumlarının qətnamə və qərarlar. 4 cilddə, I c., Bakı: Azərnəşr, 1987, 712 s.; История гражданской войны в СССР. 4 том. М.: Государственное изд.-во политической лите-ры, 1959, 440 с.; Очерки истории Коммунистической партии Азербайджана. Т.1. Ред. кол. Д.П.Гулиев, Дж.Б.Гулиев, А.Ф.Дашдамиров и др. Баку: Азернешр, 1985, 480 с.

duran vəzifələrdən biri də Azərbaycan xalqının XIX-XX əsrlər tarixinin yazılmasıdır. Çünki bu, dövlət üçün ən vacib bir məsələdir”[15].

Müasir dövrdə də 1917-1920-ci illərdə baş vermiş tarixi hadisələri özündə əks etdirən elmi-tədqiqat əsərləri yazılmışdır [16]. Bu elmi-tədqiqat

---

[15] Əliyev H.Ə. Azərbaycan Milli Elmlər Akademiyasının rəhbərliyi, həqiqi və müxbir üzvləri, institut direktorları və aparıcı alimləri ilə görüşdə nitqi. “Azərbaycan” qə., Bakı, 1997, 1 fevral.

[16] Магеррамов Н. Междупартийная борьба по национальному вопросу в Азербайджане (март 1917 - сентябрь 1918 гг.): Дис. ... канд.ист.наук. М.: 1991, 192 с.; Ağayev İ. 1917-1920-ci illər Azərbaycan tarixi Türkiyə tarixşünaslığında: Dis. ... t.e.n. Bakı: 1993, 230 s.; Bünyadov Z.M. Qırmızı terror. Bakı: Azərnəşr, 1993, 331 s.; İsmayılov İ.Z. Azərbaycanın XX əsrdə dövlətçilik siyasəti məsələləri. Bakı: ADNA, 1995, 192 s.; Nəsibzadə N.L. Azərbaycan xarici siyasəti (1918-1920). Bakı: Ay-Ulduz nəşriyyatı, 1996, 216 s.; İbrahimli F.F. Azərbaycan kəndində sosial-siyasi proseslər (1920-1930). Bakı: Mütərcim, 1996, 168 s.; Багирова И.С. Политические партии и организации Азербайджана в начале XX века. 1900-1917. Баку: Элм, 1997, 335 с.; Rəhimoğlu H. Silinməz adlar, sağalmaz yaralar. Bakı: Azərnəşr, 1997, 257 s.; Əzizov T.Ə. Azərbaycan XX əsrin əvvəllərində. Bakı: Zaman, 1997, 256 s.; Балаев А.Г. Азербайджанское национальное движение в 1917-1918 гг. Баку: Элм, 1998, 280 с.; Əhmədova F.F. Nəriman Nərimanov – ideal və gerçəklik. Bakı: “Elm və həyat” nəşriyyatı, 1998, 170 s.; Şükürov K.K. Azərbaycan tarixi. II hissə. Ən qədim zamanlardan bizim günlərədək: dövrlər, hadisələr, sinxronlaşdırılmış cədvəllər. 3 cildə II c. Bakı: Şirvannəşr, 1998, 480 s.; Qaffarov T.B. Azərbaycan tarixi (1920-1991). Bakı: Mütərcim, 1999, 279 s.; Göyüşov A.R. 1917-1920-ci illərdə Şimali Qafqaz dağlılarının azadlıq uğrunda mübarizəsi. Bakı: Araz, 2000, 352 s.; Zülfüqarlı M.P. Azərbaycan tarixi. İkinci respublika dövrünün tarixşünaslığı. (1920-1991-ci illər). Bakı: Çaşıoğlu, 2001, 312 s.; İsgəndərov A.S. 1918-ci il mart qırğınının tarixşünaslığı. Bakı: Mütərcim, 1997, 184 s.; İsgəndərov A.S. Azərbaycan Xalq Cümhuriyyəti. 1918-1920. Bakı, 2003, 64 s.; Балаев А.Г. Азербайджанское национально-демократическое движение 1917-1920 гг. Баку: Элм, 1990, 95 с.; Садыгов М. Ответь тебе даст история. Геноцид азербайджанцев в цифрах, фактах, документах - XX век. Баку: Мутарджим, 1995, 382 с.; Məmmədov X.M. Azərbaycan milli hərəkatı. 1875-1918. Bakı: Sabah, 1996, 174 s.; Qasımov M.C. Xarici dövlətlər və Azərbaycan. Bakı: Qanun, 1998, 360 s.; Гусейнов Р.А., Вердиева Х.Я. История Азербайджана. Баку: Озан, 2000, 180 с. ; Əmirov H. Yeni və ən yeni Azərbaycan tarixnin mənbəşünaslığı. Bakı: ADPU nəşriyyatı, 2001, 126 s.; Süleymanova S. Azərbaycanda ictimai-siyasi hərəkatın yaranması və inkişafı (XIX əsrin sonu-XX əsrin əvvəli). Dis. ... t.ü.e.d. Bakı: 2003, 347 s.; Cəfərli C.S. Azərbaycanli deputatların Bakı şəhər Dumasında fəaliyyəti (1893-1917). Tarix elm. dok. ... dis. Bakı: 2004, 148 s.; Həsənov H.Ə. Nəriman

əsərləri bəhs olunan dövrün tarixi hadisələrinə obyektiv qiymət verilməsinə şərait yaratmışdır. Xüsusilə, XXI əsrin əvvəllərində AMEA A.A. Bakıxanov adına Tarix İnstitutunda, müəyyən olunmuş konsepsiya çərçivəsində, aparılan elmi araşdırmalar müasir Azərbaycan tarixşünaslığı üçün çox mühüm əhəmiyyət kəsb edir. Həmin konsepsiyada nəzərdə

---

Nərimanovun milli dövlətçilik baxışları və fəaliyyəti. Bakı, Elm, 2005, 248 s.; Мустафа-заде Р.С. Две Республики. Азербайджано-российские отношения в 1918-1922 гг. М.: Изд.-во МИК, 2006, 356 с.; Миргашымов А.А. История Азербайджана XX века в англоязычной литературе. Дис. ... канд.ист.наук. Баку: 2006, 185 с; Abışov V.Ş. Azərbaycanlıların soyqırımı. Bakı: Nurlan, 2007, 176 s.; Ахмедов А. Национальное движение партии и обшественные деятели Азербайджана в 1918-1925 года глазами очевидца. Баку: Нурлан, 2006, 112 с.; Mahmudov Y.M. Azərbaycan xalqının ilk demokratik Pespublikası. //AMEA-nın Tarix İnstitutu, Elmi Əsərlər. 25-ci cild, Bakı: 2008, 178 s. S. 4-34.; Təkəli M., Rıhtım M. Qafqaz İslam ordusunun xronologiyası. Bakı: Nurlar nəşriyyat-poliqrafiya Mərkəzi, 2008, 104 s.; Həsənli C.P. Azərbaycan Xalq Cümhuriyyətinin Xarici Siyasəti (1918-1920). Baki: Garısma MMC, 2009, 576 s.; Qasımov Ş. Azərbaycan yaradıcı ziyalıları sovet hakimiyyəti illərində (1920-1940-cı illər). Bakı: Elm, 2009, 216 s.; Джаббаров Ф. Бакинская нефть в политике советской России (1917-1922 гг.). Баку: CBS, 2009, 260 с.; İbrahimova A.Z. Azərbaycanda ictimai-siyasi qüvvələrin mübarizəsi. (1917-1918-ci illər). Bakı: Elm, 2010, 208 s.; Алиева С.И. Азербайджан и народы северного Кавказа. Баку: "Şərq-Qərb", 2010, 620 с.; Нифталиев И.В. Азербайджанская ССР в экспансионистских планах армян. Баку: Изд.-во Təhsil, 2010, 292 с.; Qafarov V.V. Türkiyə-Rusiya münasibətlərində Azərbaycan məsələsi (1917-1922). Bakı: Azərnəşr, 2011, 474 s.; Исмаилов Э.Р. Степан Шаумян – Обреченный на забвение. Портрет "легендарного коммунара" без ретуши. Баку, Издательский дом "Şərq-Qərb, 2012, 448 с.; Mahmudov Y.M. Azərbaycan Respublikası Azərbaycan Xalq Cümhuriyyətinin tarixi varisidir: 20 ilin böyük uğurları. // AMEA Tarix İnstitutu Elmi Xəbərlər. 2011, 38-ci cild, s. 3-29. S.21.; Həsənli C.P. Sovet dövründə Azərbaycanın xarici siyasəti (1920-1939). Bakı: Adiloğlu, 2012, 565 s.; Исмаилов Э.Р. Анастас Микоян -он проходил между струй. Баку: Издательский Дом Şərq-Qərb,2013, 384 с.; Дарабади П.А. Военно-политическая история Азербайджана (1917-1920 годы). Баку: Издательская дом Кавказ, 2013, 296 с.; Məmmədov X.M. Azərbaycan milli hərəkatı. 1875-1918. Bakı: Sabah, 1996, 174 s.; Qasımov M.C. Xarici dövlətlər və Azərbaycan. Bakı: Qanun, 1998, 360 s.; Nərimanoğlu H. Zəngəzur və Qarabağda ermənilərin törətdikləri qətliamlar Osmanlı-Türkiyə mənbələrində. Baki: QHT nəşriyyatı, 2014, 88 s.; Назарли А.А. XI Красная армия в северном Азербайджане оккупация, расправы, бесчинства. Баку, изд-во Елм və Təhsil, 2014, 2014, 392 с.; Айдамиров Т. Вывоз Бакинской нефти из Азербайджана. Баку: Elm və Təhsil, 2014, 368 с.

tutulan əsas istiqamətlərdən biri Azərbaycanın sovet dövründə təhrif olunmuş XIX-XX əsrlər tarixinin yenidən yazılmasına yönəlib. Bu istiqamətdə Tarix İnstitutunda aparılan elmi-tədqiqatların nəticəsində çoxsaylı əsərlər yazılıb. Bu əsərlər içərisində 1917-1920-ci illərin tarixi xüsusi yer tutur. 2004-2017-ci illərdə Tarix İnstitutunda "Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası" [17], o cümlədən üç cilddən ibarət "Azərbaycan xalqına qarşı 1918-ci il mart soyqırımı. Sənədlər toplusu" [18] və s. elmi-tədqiqat əsərləri işıq üzü görüb.

Mühacirət tarixşünaslığının [19] tədqiq olunan mövzunun dərindən öyrənilməsində əhəmiyyəti olduqca böyükdür. Mühacirət tarixşünaslığını yaradanlar 1917-1920-ci illərin ictimai-siyasi hadisələrində aktiv iştirak etmiş şəxslər olmuşdular. Onların yazdıqları əsərlər həm mənbəşünaslıq, həm də tarixşünaslıq baxımından olduqca qiymətlidir. Bu baxımdan M.Ə.Rəsulzadənin istər AXC dövründəki fəaliyyəti, istərsə də uzun sürən mühacir həyatının siyasi irsinin öyrənilməsi tədqiq olunan mövzu üçün olduqca mühüm əhəmiyyət kəsb etdiyi qeyd olunmalıdır [20].

---

[17] Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası. Iki cilddə. Bakı: Lider nəşriyyat, 2004, 466 s.

[18] Azərbaycan xalqına qarşı 1918-ci il mart soyqırımı. Sənədlər toplusu: 3 cilddə. I c., Bakı: Çaşıoğlu, 2009, 776 s.; Azərbaycan xalqına qarşı 1918-ci il mart soyqırımı.Sənədlər toplusu: 3 cilddə. III c., Bakı: Çaşıoğlu, 2010, 448 s.

[19] Rəsulzadə M.Ə. Azərbaycan Cümhuriyyəti. Bakı: Elm, 1990, 116 s.; Rəsulzadə M.Ə. Çağdaş Azərbaycan tarixi. Bakı, Gənclik, 1991, 112 s.; Rəsulzadə M.Ə. Bolşeviklərin şərq siyasəti. Bakı: Sabah, 1994, 134 s.; Məmmədzadə M.B. Milli Azərbaycan hərəkatı. Bakı: Nicat, 1992, 246 s.; Baykara H. Azərbaycan istiqlal mübarizəsi tarixi. Bakı: Azərnəşr, 1992, 276 s.; Nağı Şeyxzamanlının xatirələri. Bakı: Qartal, 1997, 303 s.; Topçubaşov Ə.Ə. Azərbaycan Cümhuriyyətinin yaradılması. Bakı: Təknur, 2013, 55 s.

[20] Балаев А.Г. Азербайджанские Тюрки: процессы формирования нации и национальной идентичности на рубеже XIX-XX вв. Баку: Qanun, 2010, 328 с.; Yaqublu N. Məhəmməd Əmin Rəsulzadə Ensiklopediyası. Bakı: "OL" MMC, 2013, 506 s.; Rəsulzadə M.Ə. Milliyyət məsələsində bolşevik nəzəriyyatı ilə əməliyyatı. //AMEA-nın Xəbərləri Tarix, Fəlsəfə və Hüquq seryası. 1991, № 2-3, s. 140-152.

Tədqiq olunan mövzunun öyrənilməsində Türkiyə tarixşünaslığının da[21] mühüm əhəmiyyət daşıdığı qeyd olunmalıdır. 1920-ci il 28 aprel işğalı və ondan sonrakı dövrdə Qafqazda baş vermiş tarixi hadisələrə, eləcə də Türkiyə-Azərbaycan, Türkiyə-Rusiya münasibətlərinə obyektiv qiymət vermək üçün Türkiyə tarixşünaslığı olduqca qiymətlidir. Türkiyə tarixşünaslığının problemin dərindən öyrənilməsinə cəlb edilməsində əsas məqsədlərindən biri, AXC-nin süqutu və Azərbaycan SSR-də sovet hakimiyyətinin qurulması probleminə Türkiyə tarixçilərinin münasibətinə aydınlıq gətirməkdən ibarətdir. Türkiyə tarixşünaslğında bir qrup tarixçi AXC-nin süqutunda Türkiyənin rolunu qeyd etmiş, digər bir qrup isə bu fikrin üstündən sükutla keçmişdir. Lakin bununla belə, bu sahədə də kifayət qədər tədqiqat işləri aparılmamış, əsas diqqət Türkiyə-Rusiya münasibətlərinə yönəldilmişdi.

1991-ci ildən sonra Şimali Azərbaycanda sovet hakimiyyətinin qurulması məsələsi müasir Rusiya tarixşünaslığının maraq dairəsindən çıxmağa başlamışdır. Bunun bir neçə səbəbi var: birincisi, sosializm sistemi dağılmış və tarixçilərdən tarixi hadisələrə marksizm-leninizm

---

[21] Cebesoy G.A.F. Moskova Hatiralrı. İstanbul: Vatan neşriyatı. 1955, 348 s.; Akşin A., Emekli B.E. Atatürkün Dış politika ilkeleri ve diplomasisi (Birinci kısım) 1919 dan Lozan Antlaşmasına kadar. İstanbul: Sulhi garan matbaası varisleri koll. ŞTİ., 1964, 130 s.; Haluk F.Gürsel. Tarih boyunca Türk-Rus ilişkileri. İstanbul: Baha matbaası, 1968, 243 s.; Kurat N. Türkiye ve Rusiya. XVIII. yüzyıl sonundan kurtuluş savaşına kadar türk-rus ilişkeleri (1798-1919). Ankara: Ankara Universitesi basımevi. 1970, 755 s.; Tarihte türk-rus ilişkileri. Ankara: Gnkur Basımevi, 1975, 121 s.; Sarıhan Z. Kurtuluş savaşı günlüğü. III c., TBMM-nden Sakarya savaşına. Ankara: Erol Matbaası, 1986, 646 s.; Selek S. Anadolu ihtilali. 1 c., İstanbul: Cağaloğlu, 1987, 387 s.; Kazım Karabekirin kaleminden doğunun kurtuluşu. Erzurum: Erzurum Ticaret ve Sanayi Odası, 1990, 526 s.; Butvay M. Kafkasiya Hatıraları. Ankara: Türk tarih kurumu basımevi, 1990, 130 s.; Gürün K. Türk-Sovyet ilişkeleri (1920-1953). Ankara: Türk Tarih kurumu basımevi, 1991, 325 s.; Okyar O. Milli Mücadele Dönemi. Türk-Sovyet ilişkilerinde Mustafa Kemal. (1920-1921). Ankara: Türkiye İş Bankası Kültür Yayınları. 1998, 200 s.; Gedikli Y. Enver Paşa. Nutukları, Makaleleri, Bazı Beyanname ve Mektubları. İstanbul: Ufuk Ötesi Yayınları, 2006, 248 s.; Əbdülhəmit Ə. Türkiyənin istiqlal müharibəsində Azərbaycan türkləri. Bakı: AzAtaM, 2007, 47 s.; Karabekir K. İstiklal Harbimiz: 2 cilddə I cild. İstanbul: Promat Basım Yayım San. ve Tic. A.S., 2008, 660 s.; Bal H. Azerbaycan Cumhuriyetinin kuruluş mücadelesi ve Kafkas islam ordusu. İstanbul: İdil Yayıncılık, 2010, 280 s.;

prinsiplərindən yanaşmanın tələb edilməməsidir; ikincisi, keçmiş İttifaq respublikalarındakı inqilabi hadisələrin tarixinə marağın azalmasıdır. Lakin bütün bunlara baxmayaraq, müasir Rusiya tarixşünaslığında problemlə əlaqədar müəyyən tədqiqat əsərləri yazılmış və bu gün də yazılmaqda davam etməkdədir [22].

"Şimali Azərbaycanda sovet hakimiyyəti qurulmasının tarixşünaslığı" problemi üzrə Qərb tarixşünaslığından əldə olunmuş materiallar mövzunun daha geniş və müqayisəli təhlilinə şərait yaratmışdır. Problem tədqiqi zamanı xarici tədqiqatçıların əsərlərinə [23] müraciət olunarkən, həmin

[22] Дамения И.Х. Историография истории народов Кавказа. Х1Х – начало ХХ вв. Санкт-Петербург: Санкт-Петербургская организация общества "Знание" России, 1996, 72 с.; Безугольный А.Ю. Народы Кавказа и красная армия. 1918-1945 годы. М.: Вече, 2007, 512 с.; Волхонский М.Э., Муханов В.М. По следам Азербайджанской Демократической Республики. М.: Изд.-во Европа, 2007, 222 с.; Безугоълный А.Ю. Генерал Бичерахов и его Кавказская армия. Неизвестные страницы истории Гражданской войны и интервенции на Кавказе. 1917-1919. М.: ЗАО Издательство Центрполиграф, 2011, 348 с.; Мехмет Перинчек. Армянский вопрос в 120 документах из российских государственных архивов. М.: Лаборатории Книги, 2011, 256 с.; Бордюгов Г.А., Бухараев В.М. Вчерашнее завтра: как «национальные истории» писались в СССР и как пишутся теперь. М.: АИРО-ХХ1, 2011, 247 с.; Ложкин А.Г. Интервенция, аннексия и советизация во внешней политике СССР: Историко-правовые аспекты новейших исследований. М.: АИРО-XXI, 2012, 416 с.; Чичкин А.А. Друзья и враги за кавказским хребтом. М.: Вече, 2013, 288 с.; Советские нации и национальная политика в 1920-1950-е годы. Материалы VI международной научной конференции. Киев, 10-12 октября 2013 г.М.: РОССПЭН, 2014, 686 с.; В.Д.Камынин. Теоретические проблемы историографии как научной и учебной дисциплины на рубеже XX-XXI столетий. scahi.org/.../kamynin_teoria_istoriografii.pdf.

[23] Генерал-майор Денстервиль. Британский империализм в Баку и Персии 1917-1918. (Воспоминания). Тифлис: Изд-во Советский Кавказ, 1925, 281 с.; Allen E.D. ve Muratoff R. Kafkas Harekatı. 1828-1921. Türk-Kafkas sınırındakı harplerin tarihi. Ankara: Genelkurmay Basımevi, 1966, 490 s.; Svyatoxovski T. Rusiya Azərbaycanı 1905-1920-ci illər. //Azərbaycan, 1989, № 11, s. 117-134.; Suni R.Q. Bakı Kommunası. Rus inqilabında milliyyet ve sinif. İng. dil. Türkcəyə çev.: Qüdret Emiroğlu. İstanbul: Cağaloğlu, 1990, 374 s.; Качазнуни Ов. Дашнакцутюн больше нечего делать. Баку: Элм, 1990, 89 с.; Pomiankovski J. Osmanlı imperatorluğunun çöküşü.1914-1918. I Dünya Savaşı. Alm.dil. Türkcəyə çev. Dr. Kemal Turan. İstanbul: Kayıhan Yayınları, 1990, 391 s.; Черчилль У. Мировой кризис. 1918-1925.(пер. с англ.) Изд. 4-е. М.: Книжный дом «Либроком», 2009, 336 с.; Казем–заде Ф. Борьба за Закавказье (1917-1921).

əsərlərin azərbaycan, rus və türk dilinə tərcümə edilmiş variantlarından istifadə edilmişdir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın məqsədi 1917-1920-ci illərdə Şimali Azərbaycanda sovet hakimiyyəti qurulması tarixşünaslığının yaranma səbəblərini göstərmək və onun sonrakı mərhələlərdəki tədqiqatlara təsirini öyrənməkdir.

Dissertasiya yazılarkən Sovet hakimiyyəti illərində və müasir dövrdə yazılmış tədqiqat əsərlərində, o cümlədən mühacirət və xarici ədəbiyyatda problemə münasibətləri müəyyənləşdirməklə obyektiv təhlillər aparmaq qarşıya məqsəd kimi qoyulmuşdur.

Ümumilikdə isə, "Şimali Azərbaycanda sovet hakimiyyəti qurulmasının tarixşünaslığı"nın elmi tarixşünaslıq analizini həyata keçirməkdə məqsəd, XX əsin 20-ci illərindən XXI əsrin birinci yarısınadək, problemlə əlaqədar yazılmış əsərlərin obyektiv və dəqiq təhlilini aparmaqdır. Göstərilən məqsədlərə çatmaq üçün aşağıdakı vəzifələr qarşıya qoyulmuş və onların həlli nəzərdə tutulmuşdur:

- 1920-1980-ci illərin sovet tarixşünaslığının əsas inkişaf istiqamətlərini müəyyənləşdirmək ;

- Mühacirət və xarici tarixşünaslığın tədqiqatın obyektiv və dəqiq təhlilində əhəmiyyətini üzə çıxartmaq;

- XX əsrin 90-cı illəri və XXI əsrin birinci yarısında rpoblemlə əlaqədar müasir Rusiya və Azərbaycan tarixşünaslığının əsas inkişaf istiqamətlərini müəyyənləşdirmək;

- tarixçilərin yaradıcılığına əhəmiyyətli dərəcədə təsir etmiş tarixi amilləri üzə çıxartmaq;

- Azərbaycanda sovet hakimiyyəti qurulmasının öyrənilməsi tarixinin dövr və mərhələlərini qeyd etmək;

---

Перевод Л.А. Умаевой. Ответственный редактор Элдар Исмаилов. М.: Стокгольм, САСС ПРЕСС, 2010, 328 с. С.11.; Баберовский Й. Враг есть везде. Сталинизм на Кавказе. М.: РООССПЭН, 2010, 855 с.; Даниелс Р.В. Взлет и падение коммунизма в России. /пер. с англ. И.Кожановской. М.:Российская политическая энциклопедия (РОССПЭН), 2011, 510 с.; Гофф Ж.Ле. История и память. М.: Рооссийская политическая энсиклопедия (РОССПЭН), 2013, 303 с.; Рейман М. Рождение державы: История Советского Союза с 1917 по 1945 год. [ пер. с чешск. И.Г.Безруковой, Е.В.Максимовой, С.С.Скорвида, Н.Я.Фальковской]. М.: РОССПЭН, 2015, 839 с.

- tədqiq olunan problemin araşdırılmasında tarix elminin ən mühüm nailiyyətlərini müəyyənləşdirmək;

- müxtəlif dövrlərdə tədqiq olunan problemin araşdırılması zamanı tarixçilərin, memuarçıların və publisistlərin əsərlərindəki ziddiyyətləri, çatışmayan tərəfləri, qeyri-obyektivliyi və zəif dəlilləri göstərmək;

- müxtəlif dövrlərdə tarixçilərin problem mövzu ilə əlaqədar olaraq gəldikləri nəticələri ümumləşdirmək;

- problemlə bağlı gələcək araşdırmalar üçün hədəfləri müəyyənləşdirmək.

**Tədqiqatin metodoloji əsası.** Dissertasiya mövzusunu hərtərəfli tədqiq etmək üçün tarixşünaslq elminin metodoloji prinsiplərindən: tarixçilik, obyektivlik, əhəmiyyətlilik prinsiplərindən, həmçinin faktların müqayisəli təhlili, problem-xronoloji və dövrləşdirmə metodlarından istifadə edilmişdir. Problem araşdırılarkən, eyni zamanda konkret təhliletmə, hadisə və proseslər arasında məntiqi əlaqə metoduna üstünlük verilmiş, obyektivliyə əməl edilməsinə, sistemli və kompleks yanaşmağa cəhd göstərilmişdi.

Şübhəsiz, ən əlverişli metodun tətbiq edilməsi elmin inkişaf səviyyəsindən, tədqiqatçının peşəkarlığından, onun sosial mövqeyindən, elmi ənənələrindən asılıdır.

Dissertasiya mövzusu işlənərkən çoxsaylı faktlardan və alternativ materiallardan istifadə etməklə poroblemin həllinə çalışılmışdır.

**Tədqiqatın mənbə bazası.** Problemin tarixşünaslığını yazmaq üçün ilk öncə onun mənbəşünaslıq bazasına diqqət etmək lazımdır. Hər hansı bir mövzunun tarixşünaslığını yazmaq üçün onun istinad etdiyi mənbəşünaslıq bazası zəngin olması vacibdir. Belə mənbəşünaslıq ədəbiyyatları sırasına xatirələri, memuar ədəbiyyatlarını, kommunist partiyası və sovet dövlətinin müxtəlif illərdə qəbul etdiyi qərarları, eləcə də 1920-1930-cu illərdə yazılmış və əsasən, özündə o dövrün sənədlərini əks etdirən əsərləri qeyd etmək olar.

V.İ.Leninin rəhbərlik etdiyi Sovet dövləti Azərbaycanı işğal etmək üçün çox ciddi surətdə qabaqcadan planlaşdırılması ilə əlaqədar Rusiya arxivlərində kifayət qədər materiallar var. 1920-ci ildə Azərbaycana sovet ordusunun hərbi müdaxiləsi və ondan sonrakı vəziyyətlə əlaqədar Rusiya dövlət sosial-siyasi tarix arxivinin 5-ci (V.İ.Lenin fondu), 64-cü (RK(b)P Qafqaz bürosuna aid fond), 71-ci (Sov.İKP MK yanında marksizm-leninizm İnstitutuna aid fond (MLİ), 80-ci (S.M.Kirov fondu), 84-cü

(A.İ.Mikoyan fondu), 85-ci (Q.K.Orconikidze fondu), 157-ci (M.Q.Tsakaya fondu), 558-ci (İ.V.Stalin fondu) fondlarından monoqrafiya hazırlanarkən istifadə olunmuşdur [24],[25],[26],[27],[28],[29],[30],[31].

Mövzunun mənbə bazasına, eyni zamanda ARDA [32],[33],[34],[35],[36],[37],[38],[39],[40],[41],[42],[43],[44],[45],[46]; ARPİİSSA [47],[48],[49],[50],[51],[52]; TTKA [53],[54],[55],[56],[57] və BOA

---

[24] Российский государственный архив социально-политической истории (РГАСПИ), ф. 5, оп. 2, д. 314, л. 11.
[25] РГАСПИ, ф, 64, оп. 1, д. 21, л. 150.
[26] РГАСПИ, ф. 71, оп. 33, д. 1723, л. 19-20.
[27] РГАСПИ, ф. 80, оп. 3, д. 3, л. 118-123.
[28] РГАСПИ, ф. 84, оп. 3, д. 5, л. 17,17об.
[29] РГАСПИ, ф. 85, оп. 2/с. д. 4, л. 5.
[30] РГАСПИ, ф. 157, оп. 1/с. д. 1, л. 22-25.
[31] РГАСПИ, ф. 588, оп. 2, д. 176, л. 58-86.
[32] Azərbaycan Respublikası Dövlət Arxivi (ARDA), f. 28, siy. 1/c, iş 5.
[33] ARDA, f. 28, siy. 1/c, iş 55, 42
[34] ARDA, f. 100, siy. 2, iş 791.
[35] ARDA, f. 410, siy.1, iş 94.
[36] ARDA, f. 411, siy. 1, iş 42.
[37] ARDA, f. 673, siy. 1, iş 11.
[38] ARDA, f. 676, siy. 1, iş 20.
[39] ARDA, f. 970, siy. 1, iş 4.
[40] ARDA, f. 1061, siy. 1, iş 105.
[41] ARDA, f. 1046, siy. 1, iş 29.
[42] ARDA, f. 2095, siy. 1, iş 15.
[43] ARDA, f. 2475, siy. 1, iş 9.
[44] ARDA, f. 389, siy. 1, iş 1, 4, 7, 18, 38.
[45] ARDA, f. 897, siy. 1, iş 25.
[46] ARDA, f. 894, siy. 2, iş, 39.
[47] Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi Siyasi Sənədlər Arxiv (ARPİİSSA), f. 1, siy. 1, iş 22, 89, 117, 125
[48] ARPİİSSA, f. 268, siy. 23, iş 104, 171, 265
[49] ARPİİSSA, f. 276, siy. 23, iş 104.
[50] ARPİİSSA, f. 277, siy. 2, iş 14.
[51] ARPİİSSA, f. 303, siy. 1, iş 60.
[52] ARPİİSSA. F. 456, siy. 1, iş 48.
[53] Türk Tarih Kurumunun Arşivi (TTKA), kutu no: 1, gömlek no: 69, be. no: 69.
[54] TTKA, kutu no: 19, gömlek no: 17, be. no: 17.
[55] TTKA, kutu no: 17, gömlek no: 78, be. no: 76.
[56] TTKA, kutu no: 7, gömlek no: 6, be. no: 6.
[57] TTKA, kutu no: 2, gömlek no: 66, be. no: 66.

[58], [59], [60], [61] arxivlərində saxlanılan çoxsaylı sənədlərlə yanaşı, müxtəlif material topluları da daxildir[62]. Yuxarıda qeyd olunan sənəd və materiallar əsərin yazılmasında mühüm əhəmiyyət kəsb etmişdir.

**Tədqiqatın elmi yeniliyi.** Azərbaycanın ən yeni tarixində 1917-1920-ci illərin tarixi hadisələri mühüm yer tutmaqdadır. Sosializm və kapitalizm sistemlərinin bir-birinə qarşı apardıqları ideoloji mübarizənin təsiri tədqiq olunan mövzudan da yan keçməmişdir. Lakin sosializm sisteminin dağılması ilə dünyada ikili sistemin tək sistemlə əvəzlənməsi, 1917-1920-ci illərdə baş vermiş tarixi hadisələrə elmi yanaşmanı da dəyişdirmiş və tədqiq olunan problemin yenidən elmi dövriyyəyə gətirilməsini zəruri etmişdir.

Dissertasiya işinin elmi yeniliyi aşağıdakılardan ibarətdir:

- problemlə əlaqədar olaraq, sovet dövründə marksizm-leninizm konsepsiyasına əsaslanaraq, yazılmış əsərlər yenidən, həm də tarixşünaslığın obyektivlik, tarixçilik və əhəmiyyətlilik prinsiplərinə uyğun olaraq nəzərdən keçirilir;
- müstəqillik dövründə böyük sayda xarici ədəbiyyatların əldə olunması və orada olan konsepsiyalarla tanış olduqdan sonra həmin əsərlər müqayisəli şəkildə nəzərdən keçirilir, təhlil edilir və dissertasiya şəklində araşdırılır;
- 1991-ci ildə Azərbaycan öz müstəqilliyini bərpa etdikdən sonra belə bir dissertasiya mövzusu, ilk dəfə olaraq konkret xronoloji çərçivəni (1917-1920-ci illər) əhatə etməklə, elmi-tədqiqat işi kimi geniş tədqiqata cəlb olunub;
- ilk dəfə olaraq Azərbaycan, Türkiyə və Rusiyanın dövlət arxivlərində olan çoxsaylı sənədlər problemlə əlaqədar elmi dövriyyəyə cəlb edilib;

---

[58] T.C. Dövlet Arşivleri Genel Müdürligi Cümhuriyyet Arşivi (BOA), kutu no:1, do. no: 5, b. 27-29.

[59] T.C. BOA, kutu no: 1, do. 7, be: 29.

[60] T.C. BOA, kutu no: 123, do. no: 783, sıra no: 6.

[61] T.C. BOA, , kutu no: 41,do. no: 242, sıra no: 5.

[62] Третья годовщина Великого Октября. 1917-1920. Сборник. Баку: Государственное издательство Азцентр печать, 1920, 48 с.; Из прошлого. Баку: Кооперативное издательство Бакинский рабочий, 1923, 157 с.; Из прошлого. Баку: Кооперативное издательство, 1924, 107 с.; 1918-1920-ci illərdə Azərbaycanda Sovet hakimiyyəti uğrunda mübarizə. Sənədlər və materiallar. Bakı: Azərnəşr, 1967, 569 s.; Первый съезд народов Восток 1-7 сентября 1920 г. Баку:1920, 232 с.

- çıxarılan nəticələri də tədqiqatın elmi yeniliyinin əsas elementi hesab etmək olar;

- Şimali Azərbaycanda 1917-1920-ci illərdə baş vermiş tarixi hadisələrin dərində öyrənilməsi üçün Türkiyə tarixşünaslığı tədqiqata cəlb edilərək geniş təhlil olunub;

- problemin öyrənilməsində çağdaş Azərbaycan tarix elmində yazılmış elmi-tədqiqat əsərləri tədqiqata cəlb olunub;

- problemin daha geniş və müqayisəli surətdə tədqiq olunması üçün mühacirət və Qərb tarixşünaslığı elmi dövriyyəyə gətirilib və təhlil olunub;

- 1917-1920-ci illərdə Şimali Azərbaycanda sovet hakimiyyəti qurulmasının tarixinə obyektiv qiymət verməyə cəhd göstərən müasir Rusiya tarixçilərinin tədqiqat əsərləri elmi dövriyyəyə cəlb edilib.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Tədqiq olunan mövzunun çox böyük siyasi, tarixi, elmi və nəzəri əhəmiyyəti vardı. Bu mövzu uzun müddət Sovet dövlətinin sərt ideoloji tələbləri altında, tarixi faktları təhrif etməklə yazılmışdır.

Problemin tədqiqatının elmi və praktik əhəmiyyəti həm də ondadır ki, müasir Azərbaycan Respublikasında tarixşünaslıq fənninin irəliyə doğru inkişafına müəyyən təkan verə bilər. Eyni zamanda Azərbaycan tarixşünaslığında mövcud olan boşluqları qismən doldurmaq mümkün olar.

Şübhəsiz, dissertasiya işində istifadə olunmuş çoxsaylı sənədlər və tarixşünaslıq materialları ayrı-ayrı dissertasiya işlərin, dərsliklərin, Vətən tarixinə həsr edilmiş monoqrafiyaların yazılmasına, Ali məktəblərin müvafik fakültələrində mühazirə və seminarların hazırlanmasına kömək edəcəkdir.

Dissertasiya işindən 1917-1920-ci illərdə Azərbaycanda baş vermiş tarixi hadisələrin geniş ictimaiyyətə çatdırılması üçün televiziya və radio proqramlarının hazırlanmasında da istifadə edilməsi mümkün olacaqdır.

**Dissertasiyanın aprobasiyası.** Dissertasiya Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix Institutunun “Mənbəşünaslıq və tarixşünaslıq”, “Azərbaycanın müasir tarixi”, “Azərbaycan xalqına qarşı soyqırımları tarixi” və “Azərbaycanın tarixi demoqrafiyası” şöbələrinin 19 fevral 2016-cı il tarixli birgə iclasında müzakirə olunmuş və müdafiyə məsləhət görülmüşdü. Tədqiq olunan problemin əsas nəticələri müəllif tərəfindən Azərbaycan Respublikasının elmi jurnallarında – AMEA-nın Xəbərləri, AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun Elmi Əsərləri, BDU-nun Xəbərləri, Tarix və onun problemləri, Geostrategiya, Dövlət İdarəçiliyi: Nəzəriyyə və Təcrübə jurnallarında nəşr etdirdiyi iyirmi doqquzdan çox məqalədə, həmçinin Rusiya Federasiyası və Türkiyə

Respublikasının müxtəlif elmi jurnallarında çap olunmuş elmi məqalələrdə aprobasiyadan keçmişdir.

**Dissertasiyanın strukturu.** Dissertasiya işi giriş, dörd fəsil, on yarımfəsildən (üçüncü fəslin ikinci yarımfəsli üç bənddən ibarətdir), nəticə, istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir.

## II. DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

**Girişdə** tədqiqatın aktuallığı əsaslandırılır, xronoloji çərçivəsi, movzunun öyrənilmə dərəcəsi, mənbə bazası verilir, həmçinin dissertasiyanın məqsədi, vəzifələri, elmi yeniliyi, metodoloji əsası və praktik əhəmiyyəti göstərilir.

Dissertasiyanın **"Bakı quberniyasında bolşevik-daşnak rejimin qurulmasının tarixşünaslığı"** adlı birinci fəsli dörd yarımfəsildən ibarətdir. **"1917-ci ilin fevral inqilabından sonra Azərbaycanda ictimai-siyasi vəziyyət"** adlı birinci yarımfəsildə Rusiya imperiyasında baş vermiş 1917-ci il fevral inqilabından sonra Cənubi Qafqazda, o cümlədən Şimali Azərbaycanda gedən ictimai-siyasi proseslər təhlil olunur.

Ümumiyyətlə, bu yarımfəsildə 1917-1918-ci illərin ictimai-siyasi vəziyyətini təhlil edərkən gəlinən nəticə ondan ibarətdir ki, bəhs olunan illərdə Bakıda siyasi təşkilatların yaranması və mübarizəsinin aktivləşdiyi dövrüdür. Bu dövrdə Bakıda hakimiyyətə iddialı olan bir neçə orqanın – Müvəqqəti hökumətin hakimiyyətini təmsil edən İctimai Təşkilatların İcraiyyə Komitəsinin, şəhər Dumasının, fəhlə və əsgər deputatları Sovetinin, ayrı-ayrı millətləri təmsil edən Milli Şura və partiyaların mübarizə apardıqlarını görmək mümkündür. Digər tərəfdən, bolşevik Rusiyasının Alman bloku ilə Brest-Litovski müqaviləsi (1918-ci il 3 mart) imzalaması və bunun nəticəsində Qafqaz cəbhəsindən rus qoşunlarının getməsi, burada Türkiyənin siyasi və hərbi mövqeyini möhkəmləndirmişdir.

1918-ci ilin mart-aprel aylarında Bakı Sovetinin erməni silahlı dəstələri Bakı quberniyasının Bakı, Şamaxı, Quba, Lənkəran və başqa qəzalarında hakimiyyəti zorla ələ keçirmək üçün türk-müsəlman əhaliyə qarşı soyqırımlar törətmişdi. Bu qırğınlardan sonra Bakida RSFSR hökumətinin direktiv göstərişləri, hərbi və maliyyə yardımı ilə Bakı Xalq Komissarları Soveti qurulmuş və bir müddət fəaliyyət göstərmişdi.

AXC-nin yaranması və fəaliyyətinin ilk dövründə (may-dekabr 1918-ci il) Cənubi Qafqazda Türk-müsəlman əhalisinin hüquqlarının qorunması və erməni silahlı dəstələrin cinayətlərinin qarşısının alınmasında çox böyük əhəmiyyəti oldu.

Beləliklə, 1917-1918-ci illərin ictmai-siyasi vəziyyətini təhlil edərkən gəlinən nəticə ondan ibarətdir ki, bəhs olunan illərdə Bakıda siyasi təşkilatların yaranması və mübarizəsinin aktivləşdiyi dövrüdür. Bu dövrdə Bakıda hakimiyyətə iddialı olan bir neçə orqanın – Müvəqqəti hökumətin hakimiyyətini təmsil edən İctimai Təşkilatların İcraiyyə Komitəsinin, şəhər Dumasının, fəhlə və hərbi deputatları Sovetinin, ayrı-ayrı millətləri təmsil edən Milli Şura və partiyaların mübarizə apardıqlarını görmək mümkündür. Digər tərəfdən, bolşevik Rusiyasının Alman bloku ilə Brest-Litovski müqaviləsi (1918-ci il 3 mart) imzalaması və bunun nəticəsində Qafqaz cəbhəsindən rus qoşunlarının getməsi, burada Türkiyənin siyasi və hərbi mövqeyini möhkəmləndirmişdir.

1918-ci ilin mart-aprel aylarında Bakı Sovetinin erməni silahlı dəstələri Bakı quberniyasının Bakı, Şamaxı, Quba, Lənkəran və başqa qəzalarında hakimiyyəti zorla ələ keçirmək üçün türk-müsəlman əhalisinə qarşı kütləvi soyqırımlar törətmişdi. Bu qırğından sonra Bakida RSFSR hökumətinin direktiv göstərişləri, hərbi  və maliyyə yardımı ilə Bakı Xalq Komissarları Soveti qurulmuşdur.

AXC-nin yaranması və fəaliyyətininilk dövründə (may-dekabr 1918-ci il) Cənubi Qafqazda Türk-müsəlman əhalisinin hüquqlarının qorunması və erməni silahlı dəstələrinin cinayətkar əməllərinin qarşısının alınmasında çox böyük əhəmiyyəti oldu.

**“Bolşevik-daşnak rejiminin qurulması 1920-1930-cu illərin sovet tarixşünaslığında”** adlı  ikinci yarımfəsildə bəhs olunan illərdə problemlə əlaqədar sovet tarixçilərinin əsərləri təhlil olunur.

S.Sef, A.Rayevski, Y.Rathauzer, N.Pçelin, Sur. Şaumyan, A.Dubner və başqaları bəhs olunan dövrün hadisələrini dərindən təhlil edən ilk sovet tədqiqatçıları olmuşdular.

Sovet tarixçilərinin tədqiqatlarında 1917-1918-ci illərdə Azərbaycanda, xüsusən Bakı şəhərində siyasi təşkilatlar arasında hakimiyyətə sahib çıxmaq uğrunda gedən, əvvəlcə dinc, daha sonra isə qeyri-dinc mübarizə haqqında geniş yazılmışdır. Sovet tarixçiləri bolşeviklərin Bakıda siyasi hakimiyyəti ələ almalarının qanunauyğunluğunu, daha doğrusu, bolşeviklərin hakimiyyətə “fəhlə və kəndlilərin inqilabi mübarizəsinin” nəticəsi olaraq gəldiyini göstərmək üçün 70 il çoxsaylı elmi-tədqiqat əsərləri yazmışdılar. Sovet tarixçiləri 1917-1918-ci illərdə Bakıda Sovet

hakimiyyəti qurulmasının qanunauyğunluğunu "sübut etmək" üçün özlərindən yeni - marksist-leninçi konsepsiyasını hazırlamışdılar. Bu konsepsiyasının əsas tələbi "formaca milli məzmunca sosialist" ədəbiyyatı yaratmaqdan ibarət olmuşdur.

Bu dövrün tarixçiləri Bakıda sovet hakimiyyətinin qurulmasını, əsasən 1917-ci il noyabr ayının 2-nə aid etmişdilər.

1920-1930-cu illərin tarix elmi, nəinki sovet dövrü tarixşünaslığının, eləcə də ondan sonrakı illərdə problemlə əlaqədar olaraq tarixi əsərlərin yazılmasına böyük təsiri olmuşdur.

Beləliklə, 1920-1930-cu illərdə yazılmış elmi-tədqiqat əsərləri təhlil edərkən aşağıdakı nəticələri qeyd etmək mümkündür: 1) 1917-ci ilin fevral inqilabından sonra Bakıda fəaliyyət göstərən siyasi təşkilatlar arasında Bakı Sovetinin rəhbərliyini və tərkibindəki nümayəndə çoxluğunu ələ almaq uğrunda mübarizə getmişdir; 2) Bakıda "Müsavat", "Eser", "Menşevik", "Daşnaksütyun" RSDF(b)P Bakı Komitəsi kimi partiyalar və özündə türk-müsəlman əhalisinin nümayəndələrini birləşdirən Müsəlman Milli Şurası və s. siyasi meydanda hakimiyyət uğrunda mübarizə aparmışdılar; 3) Bakıda ikihakimiyyətlilik – bir tərəfdə, özündə müxtəlif siyasi təşkilatları birləşdirən İctimai Təşkilatların İcraiyyə Komitəsi, digər tərəfdə isə bolşeviklərin simasında Bakı Soveti bütünlüklə hakimiyyəti öz üzərinə götürmək iddiasında olmuşdular; 4) 1917-ci il noyabrın 2-də bolşeviklər Bakı Sovetin yığıncağında Bakıda sovet hakimiyyətini elan etmişdir. Lakin sovet tarixçilərindən S.Sef, 1917-ci il oktyabrın 15, 27, 31-i və noyabrın 2-də Sovetin keçirilən bütün yığıncaqlarının, həqiqi üzvlərinin çoxu iştirak etmədiyinə görə, qəbul etmiş olduğu qərarları düzgün hesab etməmişdir; 5) 1918-ci ilin mart "qələbəsi" boşeviklərin, müvəqqəti də olsa, Bakıda hakimiyyətə tam yiyələnməsinə səbəb olmuşdur. Mart hadisəsini bolşevik çevrilişi kimi qiymətləndirən S.Sef, bu hadisəni "Bakı Oktyabrı" adlandırmış, lakin onun bu fikrini sovet tarixçilərinin heç də hamısı tərəfindən müdafiə olunmamışdı. Bu fikrin əleyhinə çıxan Y.Rathauzer, 1918-ci ilin martında baş vermiş "Bakı Oktyabrı" lenincəsinə düşünülən hadisə olmadığını qeyd etmişdir. V.Rəhmətov isə, Bakıda bolşeviklərin mart "qələbəsindən" sonra hakimiyyətə tam yiyələnməsi fikrini müdafiə edən tarixçiləri tənqid etmiş, bu fikrin milli-təmayülçülər arasında geniş yayıldığını vurğulamışdır; 6) 1918-ci ilin aprel ayında yaradılmış BXKS-nın tərkibi, əsasən erməni və rus nümayəndələrindən ibarət idi. BXKS sovet Rusiyasının bütün direktiv göstərişlərini yerinə yetirən bir qurum olmuşdur; 7) bolşeviklərin qurmuş olduğu BXKS 1918-ci ilin iyul ayının sonunda fəhlə və əsgərlər tərəfindən müdafiə olunmadığına görə süqut

etmişdir. Bəzi sovet tarixçiləri isə BXKS-nın süqut etməsinin səbəbini eser, menşevik, daşnak qüvvələrinin pozuculuq fəaliyyəti və Türk qoşunlarının Bakıya hücumu ilə əlaqələndirmişdilər.

**"Bolşevik-daşnak rejiminin qurulması 1940-1980-ci illərin sovet tarixşünaslığında"** adlı üçüncü yarımfəsildə XX əsrin 30-cu illərinin sonu 40-cı illərində problemlə bağlı elmi tədqiqatların aparılmasında müəyyən fasilələrin yarandığı və bunun da əsas səbəbi kimi 1920-1930-cu illər tarixçilərinin böyük bir qisminin repressiyaya məruz qalmaları, İ.V.Stalinin şəxsiyyətinə pərəstişin formalaşmağa başlaması, böyük vətən müharibəsi və s. məsələlər göstərilir. Bu yarımfəsildə ayrı-ayrı partiya və sovet dövlət xadimlərinin məqalələri, eləcə də həmin dövrün inqilabi hadisələrində yaxından iştirak etmiş şəxslərin xatirələri, eləcə də 1950-1980-ci illərdə tədqiq olunan mövzuya aid monoqrafiyalar geniş təhlil olunur.

İkinci dünya müharibəsindən sonrakı dövrdə 1917-1920-ci illərdə baş vermiş tarixi hadisələrlə əlaqədar olaraq əsərlər yazan sovet tarixçilərindən A.Ş. Milman, İ.L. Şerman, L.M. Lifşis, A.İ. Mikoyan, V.S. Yemelyanov, N.Q. Smirnov, İ.İ. Mins və b. adını qeyd etmək olar.

İkinci dünya müharibəsindən sonrakı dövrdə yazılmış əsərlər 1917-1920-ci illərdə baş vermiş tarixi hadisələri tam və obyektiv şərh etməsələr də, hər halda Bakıda sovet hakimiyyətinin qurulmasının, eyni zamanda həmin dövrün ictimai-siyasi vəziyyətini və hakimiyyəti ələ keçirmək uğrunda siyasi qüvvələr arasında gedən mübarizənin mahiyyətini öyrənmək üçün əhəmiyyəti böyükdür.

Beləliklə, 1940-1980-ci illərdə yazılmış tədqiqat əsərləri 1917-1918-ci illərdə baş vermiş ictimai-siyasi hadisələri tam və obyektiv şərh etməsələr də, hər halda, həmin dövrün ictimai-siyasi vəziyyətini və hakimiyyəti ələ keçirmək uğrunda siyasi qüvvələr arasında gedən mübarizənin mahiyyətini və b. tarixi hadisələri öyrənmək üçün müəyyən əhəmiyyət kəsb edir.

**"Bolşevik-daşnak rejiminin qurulması 1920-1980-ci illərin Azərbaycan tarixşünaslığında"** adlı dördüncü yarımfəsildə sovet dövründə formalaşan Azərbaycan tarix elminin tədqiq olunan problemə yanaşması geniş təhlil edilir.

Ayrı-ayrı partiya və sovet dövlət adamlarının xatirə xarakterli kiçik həcmli əsərləri nəzərə alınmasa, 1920-1930-cu illərdə 1917-1920-ci illərin tarixi hadisələrini geniş təhlil edən Azərbaycan tarixçilərinin hələ formalaşmadığını qeyd etmək mümkündür. Yalnız Qırmızı Professorlar İnstitutunun bir qrup məzunu Moskvadan Bakıya göndərildikdən sonra Azərbaycan tarixinin 1917-1920-ci illər dövrünün geniş elmi tədqiqi başlamışdır. Sonralar Mərkəzin göndərdiyi tarixçi alimlərin qoyduğu

“ənənəni” davam etdirən Azərbaycan milli kommunist tarixçiləri formalaşmağa başlamışdır.

1917-1920-ci illərdə baş vermiş hadisələrin, bilavasitə, iştirakçıları olmuş siyasi xadimlərin əsərləri həmin dövrün tarixi hadisələrini özündə əks etdirdiyinə görə ümumsovet tarix elminin mühüm tərkib hissəsi hesab edilməlidir. Doğrudur, bu əsərlər istifadə olunmuş metod və prinsiplər nöqteyi-nəzərindən sırf elmi tədqiqat xarakteri daşımır, ancaq izlənilən məqsədlərə, xüsusən hadisələrin xronoloji ardıcıllıqla işıqlandırılması və onlara ümumiləşdirici baxışla yanaşılmasına görə etibarlı mənbə, eyni zamanda tarixşünaslıq materialı sayılmalıdır[63].

İlk olaraq 1917-1920-ci illərin ictimai-siyasi hadisələri ilə əlaqədar, həmin proseslərdə aktiv iştirak etmiş, sonralar partiya və sovet dövlət orqanlarında yüksək vəzifələrdə işləmiş şəxslərin – N.Nərimanov, Ə.Qarayev, M.Quliyev, Q.Musabəyov, H.Sultanov və başqalarının tədqiqat xarakteli olmayan əsərləri işıq üzü görmüşdür. Lakin sonradan Azərbaycanın da milli marksist-leninçi tarixçiləri yetişmişdir.

1940-cı illərdə problemlə bağlı tədqiqat əsərlərin yazılmasında müəyyən fasilələr yaranmışdır. Ümumiyyətlə, “Qısa kurs” işıq üzü görəndən 50-ci illərə qədər vətən tarixşünaslığında tədqiq olunan mövzunun tarixi ilə əlaqədar müəyyən durğunluq yaranmışdır. Lakin 1940-cı illərdə problemlə bağlı tədqiqat əsərlərin yazılmasında müəyyən fasilələrin yaranmasına baxmayaraq, hər halda ayrı-ayrı elmi jurnalların səhifələrində 1917-1920-ci illərin tarixi hadisələrini özündə əks etdirən silsilə məqalələr çap olunmuşdur.

1940-cı illərdə nəşr olunan Azərb.SSR EA Xəbərlərində, Azərbaycan Dövlət Universitetinin, ÜİK(b)P MK yanında MEL İnstitutunun Azərb. filialı və V.Lenin adına APİ adlanan elmi müəssisələrin jurnallarında tədqiq olunan dissertasiya mövzusu ilə əlaqədar olaraq 18-dən çox elmi məqalə çap olunmuşdur. 1940-cı illərdə ayrı-ayrı elmi jurnallarda Z.İ. İbrahimovun “Qizil Ordunun Azərbaycan xalqına qardaşlıq köməyi”[64], A.A. Əlizadə və V.N. Leviatovun “Azərbaycan SSR-də tarix elmi”[65], İ.A. Hüseynovun “1918-ci ildə Bakı ingilis imperialistlərin işğalçılıq

---

[63] Azərbaycan tarixi. 7 cilddə, V cild..., s. 9.

[64] İbrahimov Z.İ. Qizil Ordunun Azərbaycan xalqına qardaşlıq köməyi. //Təbliğatçı, 1949, № 11, s. 46-71.

[65] Ализаде А.А. и Левиатов В.Н. Историческая наука в Азербайджаенской ССР (к XXX-летию Великой Октябрьской социалистической революции). //Изв.АН АзССР, 1947, № 10, с. 125-135.

planlarında"[66] və E.A. Tokarjevskinin "Bakı bolşevikləri 1918-ci ildə Azərbaycanda alman-türk müdaxiləçilərinə qarşı mübarizənin təşkilatçısıdır"[67] adlı məqalələri çap olunmuşdur.

1956-cı ildə Sov.İKP-nin XX qurultayında Stalinin şəxsiyyətinə pərəstiş xəttinin kəskin tənqid olunması, başqa sahələrə olduğu kimi, tarix elminə də yanaşmanın müəyyən qədər dəyişməsinə təsir etmişdir. Düzdür, bu dəyişmələr əsas ideoloji prinsiplərdən – marksizm-leninizm xəttindən kənara çıxılması demək deyildir. XX əsrin 50-ci illərində ayrı-ayrı jurnallarda çap olunan məqalələrlə yanaşı, problemlə bağlı daha dolğun və geniş elmi-tədqiqat xarakterli əsərlər yazıldığı da qeyd olunmalıdır ([68], [69], [70], [71], [72], [73]). Bu dövrün Azərbaycan tarixçiləri 1917-1920-ci illərin tarixi hadisələrini bir çox hallarda təhrif olunmuş formada şərh etmişdilər. Məsələn, tarixçi C.B. Quliyev "Lenin və Azərbaycanda sovet hakimiyyətinin qələbəsi və möhkəmlənməsi uğrunda mübarizə" adlı əsərində[74] Bakıda ermənilərin silahlı dəstələri tərəfindən türk-müsəlman əhaliyə qarşı törətdikləri kütləvi qırğınlardan bir cümlə yazmamış, əvəzində tarixi həqiqətləri təhrif edərək, mart hadisəsini müsavatın "qiymı"

---

[66] Гусейнов И.А. Баку в захватнических планах английских империалистов в 1918 г. (Доклад на сессии Азерб.филиала ИМЭЛ, полв. 30-й годовщине злодейского убийства 26 бакинских комиссаров агентами английского империализма. Сентябрь 1918 г.). //Тр. Азерб. филиала ИМЭЛ при ВКП(б), 1949, т. XIII, с. 54-62.

[67] Токаржевский Е.А. Бакинские большевики организаторы борьбы против германо-турецких интервентов в Азербайджане в 1918 г. //Тр.Азерб. филиала ИМЭЛ при ВКП(б), 1947, т.VI, с. 5-212.

[68] İbrahimov Z.İ. Sosialist inqilabı uğrunda Azərbaycan zəhmətkeşlərinin mübarizəsi (1917-1918-ci illər). Bakı: Azərnəşr, 1957, 585 s.

[69] Quliyev C.B. V.İ.Lenin və Azərbaycanda sovet hakimiyyətinin qələbəsi və möhkəmlənməsi uğrunda mübarizə. Bakı: Azərnəşr, 1957. 74 s.

[70] Азербайджанская Советская социалистическая республика. /Под ред. академиков Академии наук Азербайджанской ССР А.С.Сумбатзаде, И.А.Гусейнова, М.А.Дадаш-заде, М.А.Кашкая. Баку: Азернешр, 1958, 68 с.

[71] Токаржевский Е.А. Из истории иностранной интервенции и гражданской войны в Азербайджане. Баку: Изд.-ство Акад.наук Азерб. ССР, 1957, 331 с.

[72] Əlimirzəyev X. Sovet Azərbaycanı Böyük Oktyabr sosialist inqilabının yetişdirməsidir. Bakı: Azərnəşr, 1958, 232 s.

[73] Atakişiyev A. Oktyabr inqilabı Azərbaycan fəhlə sinfinə nə verdi? Bakı:Azərnəşr,1957, 90 s.

[74] Quliyev C.B. V.İ.Lenin və Azərbaycanda sovet hakimiyyətinin qələbəsi və möhkəmlənməsi uğrunda mübarizə..., s. 28.

kimi qeyd etmişdi. A. Atakişiyev isə "Oktyabr inqilabı Azərbaycan fəhlə sinfinə nə verdi?" adlı əsərində yalnız sovet tarixçilərinin əsərlərinə istinad edərək müsavatçıları Azərbaycan xalqının "qəddar düşməni" elan etmiş, "fəhlə və zəhmətkeş kəndliləri isə nəcib və xilaskar türklərin ayaqları altında inləməsindən" yazmış, amma bu fikirləri təsdiq edən hər hansı bir "tarixi faktı" göstərməmişdir. Müəllif, hətta ermənilərin Azərbaycan torpaqlarına etdiyi hərbi təcavüzün günahını da müsavatın üstünə ataraq, "müsavatçılar fəhlə sinfinin diqqətini burjuaziyaya qarşı mübarizədən çəkindirmək məqsədilə, ermənilərlə azərbaycanlılar arasında milli qırğın salırdılar"[75] sözlərini yazmaqdan belə çəkinməmişdir.

1960-1980-ci illərdə də problemlə əlaqədar olaraq bir çox elmi-tədqiqat əsərləri yazılmışdır. Bu dövrün tədqiqatçılarından P.Ə. Əzizbəyova, Z.İ. İbrahimov, Y.A. Tokarjevski, Q.M. Bayramov, H.S. Əzimov, X. Əliyev, T. Köçərli, Ə.S. Sumbatzadə və b. adlarını qeyd etmək olar.

Ümumiyyətlə, XX əsrin 20-80-ci illərində yaranmış Azərbaycan sovet tarixşünaslığına xas olan ümumi cəhətləri aşağıdakı formada sıralamaq mümkündür: 1) Azərbaycan fəhlə və kəndliləri Bakıda sovet hakimiyyətinin qurulmasında fəal rol oynamışdır; 2) Azərbaycan xalqının milli varlığını qoruyub saxlamaq, öz milli dövlətini yaratmaq uğrunda mübarizə aparan "Müsavat" partiyası, Müsəlman Milli Şurası və 1918-ci ilin mayında yaranmış AXC hökuməti "əksinqilabçı", "xalqın düşməni", "irticaçı", sovet Rusiyasının göndərdiyi direktivlər, silah-sursat və pulun köməyi ilə Bakıda, daha sonra Azərbaycanın başqa qəzalarında türk-müsəlman əhaliyə qarşı kütləvi soyqırımları həyata keçirərək öz mövqelərini möhkəmləndirməyə çalışan erməni-bolşeviklər isə inqilabçı adlandırılmışdı; 3) bütün sovet tarixçiləri, o cümlədən Azərbaycan tarixçiləri də 1917-ci il 31 oktyabr – 2 noyabr aylarında bolşeviklərin Bakıda sovet hakimiyyəti elan etmələrini Azərbaycanda covet hakimiyyəti qurulmasının birinci, 1918-ci ilin aprel ayında yaradılmış BXKS-nı isə ikinci mərhələ kimi qeyd etmişdilər.

Dissertasiyanın **"Azərbaycan Xalq Cümhuriyyətinin süqutu və Aprel işğalı sovet tarixşünaslığında"** adlı ikinci fəslində 1920-ci ilin aprelində Azərbaycan SSR-in qurulması ilə əlaqədar olaraq 1920-1980-ci illərin sovet tarixşünaslığı təhlil edilir. Eyni zamanda Azərbaycan SSR-in qurulmasına aid milli kommunist tarixçilərinin yazmış olduqları əsərlərdə, tarixi həqiqətlər təhrif olunduğu göstərilərək tənqid olunur. İkinci fəslin **"XI Qırmızı ordunun Şimali Azərbaycana hərbi təcavüzü Rusiya**

[75] Atakişiyev A. Oktyabr inqilabı Azərbaycan fəhlə sinfinə nə verdi?..., s.29.

**tarixşünaslığında"** adlı birinci yarımfəsildə, 1920-ci il 28 aprel hadisəsi sovet tarixçilərinin daim diqqət mərkəzində olduğu, Sovet tarixçilərinin tarix həqiqətləri bir çox hallarda təhrif olunmuş formada şərh etmələrinə baxmayaraq, hər halda onların problemlə əlaqədar olaraq çoxsaylı elmi-tədqiqat əsərləri yazdıqları və elmi dövriyyəyə partiya və dövlət sənədlərinin gətirilməsində, eləcə də onların təhlil olunmasında böyük işlər gördükləri qeyd olunur. Məlumdur ki, XX əsrin 20-30-cu illərində S.Sef, A.Rayevski, Y.Rathauzer, Sur.Şaumyan, A.Dubner və Q.Şteyn kimi sovet tarixçilərinin elmi-tədqiqatları, sonralar sovet tarixşünaslığının formalaşmasına böyük təsiri olmuşdur.

İkinci dünya müharibəsindən sonra tədqiq olunan problemə yanaşmada sovet tarixçilərinin əsərlərində elə bir dəyişiklik baş verməmişdir. Bu dövrdə "formaca milli, məzmunca sosialist" prinsipləri sovet tarixi ədəbiyyatının əsas ana xətti olmuşdur.

Rusiya 1920-ci ilin yanvar ayının əvvəllərindən başlayaraq bütün diqqətini Cənubi Qafqaza-Azərbaycana yönəltmiş və müxtəlif istiqamətlərdən ona qarşı təzyiqlərə başlamışdır. Rusiyanın Azərbaycanla bağlı siyasətini dərindən öyrənilməsində həmin dövrdə partiya və sovet dövlət xadimlərinin bir-birlərilə teleqram, məktub və s. formada, yazışmaları mühüm əhəmiyyət kəsb edir. Bütün bu yazışmalar sovet hökumətinin yüksək vəzifəli şəxslərin, daha doğrusu, Sovet dövlətini quranlar (V.Lenin, İ.Stalin, Q.Orconikidze, Q.Çiçerin, D.Trotski, S.Kirov və başqaları) arasında getmişdir. Hal hazırda həmin sənədlərin müəyyən bir hissəsi RDSSTA-da qorunur.

Ümumiyyətlə, 1920-ci ilin əvvəllərində Şimali Azərbaycanda aprel çevrilişinə və ondan sonra baş vermiş siyasi hadisələrə aydınlıq gətirilməsində, eləcə də həmin dövrün tarixşünaslığının yazılmasında Rusiya arxiv sənədlərinin əhəmiyyətiböyükdür.

Beləliklə, ikinci fəslin birinci yarımfəslində arxiv sənədləri və elmi-tədqiqat əsərlərinin təhlil olunması aşağıdakı nəticəyə gəlməyə imkan verir: 1920-ci il aprelin 28-də milli hökumət devrildikdən sonra hakimiyyətə, "əməkçi xalq" deyil, Azərbaycanı Sovet Rusiyasına birləşdirmək istəyən bir qrup azərbaycanlı kommunist gəlmişdi; Azərbaycanın təbii sərvətləri – nefti, pambığı, taxılı və s. məhsulları təmənnasız olaraq Rusiya Sovet imperiyasının ümumi malına çevrilmişdi; Azərbaycanın idarə olunması və ərazi bütövlüyü məsələsi Sovet hökumətinin nəzarəti altında həll olunması nəzərdə tutulurdu; 1920-ci ilin aprel işğalından sonra sovet Rusiyasının təzyiqi ilə Qərbi Zəngəzur torpaqları Ermənistan SSR-yə verilmiş, Qarabağ

və Naxçıvan torpaqları da ermənilərə verilməsinə hazırlıq getmişdi; [76] "Müstəqil Azərbaycan Şüarı" yalnız şüar olaraq qalmışdır, həqiqətdə isə Şimali Azərbaycan bolşevik Rusiyasının müstəmləkəsinə çevrilmişdi.

**"Azərbaycan Xalq Cümhuriyyətinin süqutu və aprel işğalı Azərbaycan tarixşünaslığında"** adlı ikinci yarımfəsildə, Sovet rejiminin sərt ideoloji sistemi yazılan bütün əsərlərin marksizm-leninizm prinsiplərinə uyğun olmasını, Azərbaycanda sovet hakimiyyətinin qələbə çalmasında proletar inqilabının rolunu daha qabarıq göstəilrməsi tələb olunduğu qeyd olunur. Bu yarımfəsildə, həmçinin yazılmış hər bir əsərin ciddi senzuradan keçməsini, Azərbaycana sovet ordusunun müdaxiləsi, guya "xalqın xahişi" ilə və Azərbaycan Müvəqqəti İnqilab Komitəsinin müraciəti əsasında baş verdiyini "sübut" etməsini tələb etdiyi göstərilir.

A.Atakişiyev, Y.Tokarjevski, C.Quliyev, X.Əlimirzəyev, M.İsgəndərov, Ə.Quliyev, P.Əzizbəyova, N.Əlizadə, Y.Bağırov, Z.İbrahimov, Ə.Sumbatzadə, T.Köçərli, N.Məmmədov, R.Qurbanov və b. əsərlərində AXC-nin 23 aylıq hakimiyyəti dövründə həyata keçirdiyi sosial-iqtisadi, mədəni və siyasi tədbirlərdən, xüsusilə 1919-cu ildə Parisdə keçirilən sülh konfransında Ə.M.Topçubaşovun rəhbərliyi altında Azərbaycan nümayəndə heyətinin gördüyü müsbət işlərdən bir cümlə yazmamışdılar. Adları qeyd olunan tarixçilər 1918-1920-ci illərin tarixini, ümumiyyətlə təhrif olunmuş formada təqdim etmişdilər.

Araşdırılan problemlə əlaqədar olaraq Sovet Azərbaycanı dövründə yazılmış elmi-tədqiqat əsərlər sübut edir ki, müstəqil Azərbaycan hökumətini zorakı yolla devirmək, keçmiş çar hökuməti dövründəki sərhədləri bərpa etmək RSFSR hökumətinin əsas məqsədi olmuşdur. Bu məqsədi həyata keçirmək üçün həm daxildə Azərbaycan kommunist partiyasının rəhbərliyi altında, həm də xaricdən Sovet Rusiyasının hərbi qüvvələrinin açıq müdaxiləsi üçün ciddi hazırlıq işləri görülmüş və bunun nəticəsi olaraq da AXC hökuməti devrilmişdir. Digər tərəfdən, beynəlxalq vəziyyətin gərgin olması, Azərbaycana hərbi müdaxilə edən Sovet Rusiyasının qarşısına kifayət qədər hərbi qüvvə çıxarmaq mümkün olmaması, ermənilərin Azərbaycanın Qərb torpaqlarına hərbi təcavüzü, Türkiyənin xarici müdaxiləyə qarşı müharibə apardığından əlavə döyüş cəbhəsi açmaq istəməməsi, eləcə də onun hərbi sursata və maliyyə

---

[76] Нифталиев И.В. Азербайджанская ССР в экспансионистических планах армян. Баку: Издательство Təhsil, 2010, 292 с. С. 88-147.

vəsaitinə olan ehtiyacları və başqa bu kimi səbəblər AXC-nin devrilməsini şərtləndirən əsas amillərdən olmuşdur.

Dissertasiyanın **"Aprel işğalı mühacirət, Türkiyə, Qərb və müasir Rusiya tarixşünaslığında"** adlı üçüncü fəslində 1917-1920-ci illərdə Azərbaycanda sovet hakimiyyətinin qurulmasının müahcirət və xarici tarixşünaslığında əks olunmasına aydınlıq gətirilir, problemin hər iki tarixşünaslıqda öyrənilməsi vəziyyətindən bəhs edilir və həmin tarixi əsərlərin xüsusi əhəmiyyət kəsb etdiyi çıxarılan elmi nəticələrlə təsdiq olunur.

Üçüncü fəslin **"Aprel işğalı mühacirət tarixşünaslığında"** adlı birinci yarımfəsilində mühacirət ədəbiyyatını yaradanların real tarixi həqiqətlərin işıq üzü görməsində, mühacirət dövrünün tarixşünaslığının yaranmasında rolunun böyük olduğu göstərilir. 70 il ərzində Sovet imperiyasına qarşı mübarizə aparan mühacirət tarixşünaslığı böyük maraq doğurmaqla yanaşı, həm də tədqiq olunan mövzunun tarixşünaslığının öyrənilməsində əhəmiyyəti olduqca böyükdür. Lakin mühacirət tarixşünaslığında problemə obyektiv yanaşmanı çətinləşdirən amillər də olmuşdur. Bu amillər onların sovet arxiv sənədlərinə, eləcə də elmi-tədqiqat materiallarına yaxın düşmələrinin məhdud olması ilə bağlı idi. Bütün bunlarla yanaşı, tam əminliklə qeyd olunmalıdır ki, araşdırılan mövzu ilə əlaqədar olaraq mühacirət ədəbiyyatı sovet tarx elminə qarşı bir alternativ tarixşünaslıq olmuşdur.

Bu yarımfəsildə M.Ə. Rəsulzadə, M.B. Məmmədzadə, H. Baykara, Nağı Şeyxzamanlı və Ə.B.Topçubaşovun əsərləri təhlil olunur. Bu əsərlərin təhlili belə bir nəticəyə gəlməyə imkan verir: 1. İşğal ərəfəsində AXC hökumətində hakimiyyət böhranı yaranmış və rus ordusunun hərbi təcavüzünə arxalanan daxildəki kommunistlər bu böhrandan istifadə etmişdi. 2. Parlamentdə təmsil olunan partiyalardan Müsavat, İttihad, Hümmət, Əhrar və sosialist fraksiyasına daxil olan "xalqçı sosialist firqəsi" üzvləri hakimiyyətin müvəqqəti olaraq Azərbaycan kommunistlərinə verilməsinə razı olmuşdular. 3. Sovet Rusiyası, Azərbaycana hücumu ərəfəsində, xalqı sakitləşdirmək üçün bəyanatlar və müxtəlif şüarlar vermiş, bu bəyanat və şüarların təbliğ olunmasında türk zabitlərindən də istifadə etmişdir. 5. Xaricdən siyasi və hərbi kömək almaq imkanından məhrum olması, daxildəki pozucu qüvvələrin təxribatlarının qarşısını ala bilməməsi, əsas hərbi hissələrin Ararat (Ermənistan) Respublikasının hərbi təcavüzünün qarşısının alınmasına cəlb olunması və belə bir vəziyyətdə rus ordusunun işğalçılıq yürüşünə başlaması AXC-nin süqutuna səbəb olmuşdur.

Dissertasiyanın **“Aprel işğalı xarici tarixşünaslıqda”** adlı ikinci yarımfəsli üç bəndə bölünmüşdür. Bu yarımfəslin **“Türkiyə tarixşünaslığı”** adlı birinci bəndində, Azərbaycan öz müstəqilliyinə qovuşduqdan sonra problemin öyrənilməsinə daha çox xarici ədəbiyyat, xüsusilə Türkiyə tarixşünaslığı cəlb olunmağa başlandığı, 1918-1920-ci illərdə Cənubi Qafqazda baş vermiş tarixi hadisələri Türkiyə tarixşünalığını cəlb etmədən dərindən öyrənilməsinin mümkün olmadığı qeyd olunur.

Mövzunun tarixşünaslığı yazılarkən Türkiyə tədqiqatçılarının əsərlərindən, o cümlədən Başbakanlı Osmanlı Arxivi və Türk Tarix Kurumunun Axivindəki sənədlərdən istifadə olunmuşdur. Həmin arxiv sənəndləri və materiallar tədqiq olunan mövzu üçün olduqca əhəmiyyətidir.

İkinci yarımfəslin “Türkiyə tarixşünaslığı” adlı birinci bəndi yazılarkən E.Akal, T.Akyol, İ.Atnur, D.Avcıoğlu, H.Bal, B.Bakar, M.Butvay, Ə.Cəbəsoy, Y.Gədikli, K.Gürün, H.Gürsel, R.Hakkı, K.Qarabəkir, N.Kurat, Y.Okçu, O.Okyar, M.Sadık, M.Saray, Z.Sarıhan, A.Sayılgan, S.Selek, T.Sorgun, T.Sünbül, C.Taşkiran, A.Taymas, Z.Toğan, A.Yavuz və başqalaının əsərlərindən istifadə edilmişdir.

Tədqiq edilən mövzu ilə əlaqədar olaraq Türkiyə tarixşünasığı təhlil olunarkən Osmanlı dövləti, ondan sonra yeni qurulan Türkiyə Respublikası Azərbaycan dövlətinin müstəqil olmasını istəmələri, buna həmişə kömək etməyə çalışmları nəticələrinə gəlməyə imkan verir.

Beləliklə, problemlə əlaqədar olaraq Türkiyə tarixşünaslığının təhlili zamanı aşağıdakı nəticələrə gəlmək mümkündür: 1. Türkiyə tarixşünaslığında AXC-nin süqutuna münasibətdə, əsasən üç mövqe özünü göstərir. Bir qrup tarixçi AXC-nin süqutunda Türkiyənin rolunu qeyd edir, başqa bir qrup bu məsələnin üstündən sükutla keçirdi, digər bir qrup isə AXC hakimiyyətini günahlandırırdı. 2. AXC hakimiyyətinin devrilməsində Kazım Qarabəkir Paşa, Xəlil Paşa və başqalarının birbaşa rolu olmasa da, onlar AXC hakimiyyətinin devrilməsinə öz etirazlarını bildirməmişdilər. 3. Türkiyənin ingilis, fransız, italyan və yunan qoşunları tərəfindən hərbi təcavüzə məruz qalması, ciddi maliyyə və hərbi yardıma ehtiyacın olması səbəbindən Sovet Rusiyası ilə yaxınlaşmaq məcburiyyətində qalmışdır. Ona görə də Atatürk Türkiyəsi Azərbaycana hərtərəfli yardım edə bilməmişdir. 4. Osmanlı dövləti, ondan sonra yeni qurulan Türkiyə Respublikası, siyasi quruluşundan asılı olmayaraq, Azərbaycan dövlətinin müstəqil olmasını istəmiş, buna həmişə kömək etməyə çalışmışdı.

İkinci yarımfəslin **“Qərb tarixşünaslığı”** adlı ikinci bəndində, Qərb tarixşünaslığı geniş təhlil olunur. Qərb tarixşünaslığının təhlil olunması “Şimali Azərbaycanda sovet hakimiyyəti qurulmasının tarixşünaslığı”

problemi üzrə əldə olunmuş materialların daha da zənginləşməsinə, eləcə də 1917-1920-ci illərdə baş vermiş tarixi hadisələrə obyektiv qiymət verilməsinə şərait yaratmışdı.

Dissertasiyanın bu yarımfəslində R.Suni, F.Kazımzadə, T.Svyatoxovski, Y.Baberovski və b. əsərləri təhlil olunub. Bununla belə dissertasiya işində yuxarıda adları qeyd olunan müəlliflərlə yanaşı Y.D. Allen və R. Muratoff [77], J. Pomiankovski [78], J.Le. Qoff.[79], Q. Tomson[80], U. Çörçilin [81] də əsərindən istifadə olunub.

Qərb tarixçilərin əsərlərinin ideya xəttinə iki sistemin mübarizəsinin doğurduğu "soyuq müharibə" dövrünün təsiri böyük olmuşdur. Xarici tarixşünaslıqda yazılanların hamısı tamamilə obyektiv hesab edilməsə də, hər halda həmin tarixşünaslıq marksizm-leninizm ideologiyasından uzaq olduğuna görə onlarda obyektivlik daha çox idi.

Beləliklə, problemlə əlaqədar olaraq Qərb tarixşünaslığının müəyyn bir hissəsinin təhlili aşağıdakı nəticələrə gəlməyə imkan verir: 1. Qərb tarixşünaslığı, 1917-1920-ci illərin ictimai-siyasi hadisələrinə müəyyən qədər obyektiv yanaşmaqla, 70 il sovet tarix elminə alternativ tarixşünaslıq kimi qiymətləndirilməlidir. 2. "Proletar inqilabı" ideyası Rusiya imperiyasının ucqarlarında yaşayan xalqlar tərəfindən qəbul olunmamışdır. 3. Yerlərdə sovet hakimiyyətinin qurulması zorakı metodlarla müşayiət olunmuşdur. 4. AXC-nin süqutunda və Azərbaycanda 1920-ci il 28 aprel işğalında fəhlə və kəndlilərin rolu, sovet tarixşünaslığında yazıldığı kimi, yəni aparıcı olmamış, işğal bolşevik ordusunun gücü ilə baş vermişdi.

İkinci yarımfəslin **"Müasir Rusiya tarixşünaslığı"** adlı üçüncü bəndində bu tarixşünaslığın "Şimali Azərbaycanda sovet hakimiyyəti qurulmasının tarixşünaslığı" problemi üzrə əldə olunmuş materialların daha da zənginləşməsinə şərait yaratdığı göstərilir.

---

[77] Allen E.D. ve Muratoff R. Kafkas Harekatı. 1828-1921. Türk-Kafkas sınırındakı harplerin tarihi. Ankara: Genelkurmay Basımevi, 1966, 490 s.

[78] Pomiankovski J. Osmanlı imperatorluğunun çöküşü.1914-1918. I Dünya Savaşı.Alm.dil. çev. Dr. Kemal Turan. İstanbul: Kayıhan Yayınları, 1990, 391 s.

[79] Гофф Ж.Ле. История и память. М.: Рооссийская политическая энсиклопедия (РОССПЭН), 2013, 303 с.

[80] Томсон Г. Бакинские воспоминания 1914-1921 года. Баку: QHT Nəşriyyatı mətbəəsi, 2013, 102 с.

[81] Черчилль У. Мировой кризис. 1918-1925.(пер. с англ.) Изд. 4-е. М.: Книжный дом «Либроком», 2009, 336 с.

SSRİ dağılandan sonra Rusiya tarix elmində problemlə əlaqədar olaraq elmi-tədqiqat əsərlərin yazılması xeyli azalmışdır. Əgər belə demək mümkünsə, 1991-ci ildən sonra Şimali Azərbaycanda sovet hakimiyyətinin qurulması məsələsi Rusiya tarix elminin maraq dairəsindən çıxmağa başlamışdır. Bu dövrdə yazılan elmi-tədqiqat əsərlərinin böyük bir hissəsi ya ümumqafqaz regionuna, yaxud Şimali Qafqazda baş vermiş tarixi hadisələrə həsr olunmuşdur.

Müasir Rusiya tarix elmində 1917-1920-ci illərin hadisələrinə diqqətin azalmasının bir neçə səbəbi vardı: birincisi, sosializm sistemi dağılmış və tarixçilərdən tarixi hadisələrə marksizm-leninizm prinsiplərindən yanaşma tələb olunmurdu; ikincisi, keçmiş İttifaq respublikalarındakı inqilabi hadisələrə maraq azalmışdır. Lakin bütün bunlara baxmayaraq, müasir Rusiya tarixşünaslığında problemlə əlaqədar bir sıra elmi-tədqiqat əsərləri yazılmışdır. Dissertasiyanın "Müasir Rusiya tarixşünaslığı" adlı üçüncü bəndi yazılarkən İ.X. Dameniya, A.Y. Bezuqolnıy, M.E. Volxonskiy, V.M. Muxanov, A.Q. Lojkin və b. əsərlərindən istifadə olunub.

Dissertasiyanın **"Şimali Azərbaycanda sovet hakimiyyətinin qurulması üçüncü Respublika dövrünün tədqiqatlarında"** adlı dördüncü fəslində, 1917-1920-ci illərdə Azərbaycanda sovet hakimiyyətinin qurulması müasir Azərbaycan tarix elmində öyrənilməsi vəziyyətindən bəhs edilir və həmin tarixşünaslığın xüsusi əhəmiyyət kəsb etdiyi çıxarılan elmi nəticələrlə təsdiq olunur.

1991-ci ildə müstəqilliyin bərpa edilməsi Azərbaycanın müasir tarixşünaslığının yaranmasına çox böyük təsiri oldu.

Müasir dövrün elmi-tədqiqatlarında 1917-1918-ci illərin tarixi hadisələri ilə yanaşı, AXC-nin yaranmasına, onun 23 aylıq fəaliyyəti dövründə həyata keçirmiş olduğu daxili və xarici siyasətinə, onun süqutuna və sovet hakimiyyətinin qurulmasına aid yazımış elmi-tədqiqat əsərləri təhlil olunur.

1917-1920-ci illərin tarixi hadisələri ilə əlaqədar olaraq müasir Azərbaycan tarix elmində aparılına ardıcıl elmi-tədqiqatlardan bəhs edərkən, AMEA A.A.Bakıxanov adına Tarix institutun fəaliyyəti xüsusi qeyd olunmalıdır. Tarix İnstitutunun əsas fəaliyyət istiqaməti: "Azərbaycan tarixinin ümumi konsepsiyası"dır. Həmin istiqamət "Azərbaycan tarixi üzrə ümumiləşdirici tədqiqatlar", "Tarixşünaslıq və mənbəşünaslıq", "Azərbaycanın siyasi tarixi", "Azərbaycanın sosial iqtisadi tarixi" adlı 4 problemi əhatə edir.

Tarix İnstitutunda aparılan elmi-tədqiqatların əsas istiqamtlərindən biri də XIX-XX əsrlərin təhrif olunmuş Azərbaycan tarixinin və itirilmiş

torpaqların tarixinin yenidən yazılmasına yönəlib. Tarix İnstitutunun direktoru, akademik Y.M.Mahmudovun təşəbbüsü və rəhbərliyi altında yalnız yerli arxivlərdən deyil, eyni zamanda dünayanın müxtəlif şəhərlərin - Moskva, Sankt Peterburq, Paris, Roma, London, Dehli və b. şəhərlərin arxivlərdən Azərbaycan tarixinə aid çoxsaylı sənədlər ölkəmizə gətirilib və bu iş davam etdirilməkdədir.

Tarix İnstitutunun rəhbərliyinin və əməkdaşlarının səyləri nəticəsaində İnstitutunun arxivinə XVIII-XIX əsrlərə, xüsusən XX əsrin 17-20-ci illərinə aid çox qiymətli sənədlər toplamaq mümkün olmuşdu. Yuxarıda qeyd olunan sənədlərdən istifadə etməklə, 2004-2017-ci illərdə aparılan elmi araşdırmalar nəticəsində bir çox elmi-tədqiqat əsərləri, o cümlədən sənədlər toplusu işıq üzü görmüşdü[82].

**"Şimali Azərbaycanda sovet hakimiyyətinin qurulması çağdaş vətən tarixşünaslığında"** adlı birinci yarımfəsildə, 1991-ci ildə Azərbaycan öz müstəqilliyini bərpa etdikdən sonra araşdırılan mövzuya yeni elmi yanaşma özünü göstərməyə başlandığı, bunun da səbəbi 70 il arxivlərdə gizli qalan, yazılması yasaq olunan sənədlərin tədqiqatçıların ixtiyarına verildiyi və ideoloji tələblər aradan qalxdığı və s. qeyd olunur.

Problemin daha geniş və obyektiv tədqiq olunması çağdaş vətən tərixşünaslığında xüsusi əhəmiyyət kəsb etmiş və bu gün də kəsb etməkdədir. Bunun da ən birinci səbəbi, keçmiş SSRİ deyilən bir dövlətin dağılması ilə bağlıdırsa, digər bir səbəbi, Şimali Azərbaycanda sovet hakimiyyətinin qurulması tarixinin doğru-dürüst yazılmasına ehtiyacın yaranması ilə əlaqədardı.

Bu yarımfəsildə A.Balayev, N.Nəsibzadə, X.Məmmədov, İ.Bağırova, E.İsmayılov, M.Qasımov, M.Süleymanov, C.Həsənli, P.Darabadi, A.İsgəndərov və b. əsərləri təhlil olunub.

Yuxarıda adları qeyd olunan tarixçilər, yeni arxiv sənədlərindən, dövrü ədəbiyyat, mühacirət və qərb tarixşünaslığından istifadə edərək yazmış

---

[82] Heydər Əliyev Azərbaycan elminin keşiyində. Sənədlər və materiallar toplusu. 2 cilddə. /Layihənin rəhbəri, elmi redaktoru və ön sözün müəllifi: Yaqub Mahmudov. Bakı: Turxan NPB, 2013; Azərbaycan Xalq Cümhuriyyəti Böyük Britaniya arxiv sənədələrində. Bakı: Çaşıoğlu, 2008, 576 s.; Azərbaycan xalqına qarşı 1918-ci il mart soyqırımı. Sənədlər toplusu. 3 cilddə, I c., Bakı: Çaşıoğlu, 2009, 776 s.; Azərbaycan xalqına qarşı 1918-ci il mart soyqırımı. Sənədlər toplusu. 3 cilddə, II c., Bakı: Çaşıoğlu, 2009, 776 s.; Azərbaycan xalqına qarşı 1918-ci il mart soyqırımı. Sənədlər toplusu. 3 cilddə, III c., Bakı: Çaşıoğlu, 2010, 448 s.

olduqları çoxsaylı elmi-tədqiqat əsərləri 1917-1918-ci illərdə Azərbaycanda ictimai-siyasi vəziyyətin obyektiv təhlil edilməsinə imkan yaratmışdı.

Beləliklə, çağdaş Azərbaycan tarixşünaslığını təhlil edərkən əldə olunan nəticələr, əsasən aşağıdakılardan ibarətdir: a) 1917-ci ilin fevral inqilabından sonra Azərbaycanda ziyalıların rəhbərliyi altında milli hərəkat genişlənmısi özünü "Müsavat" partiyasının daha aktiv siyasi fəaliyyətə başlamasında, Gəncədə Türk Ədəmi Mərkəziyyət Federalistlər Partiyasının yaradılmasında və bir müddətdən sonra "Müsavat" partiyası ilə birləşməsində, Müsəlman Milli Şurasının yaranmasında göstərirdi; b) Rusiyada yaşayan türk-müsəlman əhalinin siyasi cəhətdən təşkilatlanmasında və onların aktiv siyasi mübarizəyə qoşulmasında böyük rol oynamış Ümumqafqaz müsəlmanlarının Bakı qurultayında (15-20 aprel 1917-ci il), eləcə də I Ümumrusiya müsəlmanlarının Moskvada keçirilmiş qurultayında (1-11may 1917-ci il) iştirak etmiş nümayəndələrin böyük çoxluğu federativ, demokratik Rusiya tərkibində milli ərazi muxtariyyəti təklifinə səs vermişdilər; c) 1918-ci ilin mart hadisəsinə kimi Azərbaycanın demokratik qüvvələrinin birləşdikləri siyasi təşkilatlar federativ, demokratik Rusiya tərkibində Azərbaycanın muxtariyyətini istəyirdilər; ç) Azərbaycanın demokratik qüvvələri erməni-bolşevik silahlı qüvvələrinin türk-müsəlman əhaliyə qarşı törətmiş olduğu mart soyqırımından sonra Azərbaycanın müstəqilliyi ideyasını əsas kimi qəbul etmişdilər.

**"Azərbaycan Xalq Cümhuriyyətinin süqutu və aprel işğalı çağdaş vətən tarixşünaslığında"** adlı ikinci yarımfəsildə, 1991-ci ildən başlayaraq Azərbaycanın tarix elmində 1917-1920-ci illərin tarixi hadisələrinin öyrənilməsi üçün ciddi araşdırmalar aparıldığı qeyd olunur. Yarımfəsildə, eyni zamanda 1920-ci il aprelin 28-də AXC hakimiyyətinin devrilməsi və Azərbaycanda ikinci Respublikanın qurulması məsələsi ilə əlaqədar olaraq yazılmış əsərlər geniş təhlil edilir.

1920-ci ilin yanvar-mart aylarında daxildən "fəhlə-kəndli inqilabını" həyata keçirə bilməyən azərbaycan kommunistləri ümidlərini RSFSR-nin XI ordusunun hərbi müdaxiləsinə bağlamışdır. Bu ordu da, aprelin 26-dan 27-nə keçən gecə, başda "III Beynəlmiləl" olmaqla zirehli qatarlar qrupu Samur çayı üzərindəki sərhəd körpüsünü keçərək Azərbaycan torpağına hərbi təcavüzə başladı. Sərhəd qüvvələrindən ibarət Azərbaycanın ordu hissələri ciddi müqavimət göstərə bilmədi. Hərbi nazirin müavini General Şıxlinski isə dəmiryol körpülərinin partladılması əmrini ləğv etmişdir. Bakıdakı parlament və digər mühüm dövlət orqanlarını qorumalı olan Yardım Alayı da türkiyəli komandirlərin təhriki ilə bolşeviklər tərəfə keçdi. Hərbi gəmilərin topları parlamentin binasına tuşlanmışdır.

1920-ci il aprel ayının 27-ci axşam saat 11-də Azərbaycan parlamenti hakimiyyətin təhvil verilməsi haqqında qərar qəbul etdi. Bu, Azərbaycan Demokratik Respublikasının sonu, Azərbaycan istiqlalının yenidən itirilməsi, Azərbaycanın yenidən müstəmləkəyə çevrilməsi demək idi[83].

Azərbaycan işğal olunandan və sovet hakimiyyəti qurulandan sonra Kommunist Partiyası əsas siyasi qüvvə olaraq qalırdı. Bütün milli və qeyri-milli partiyalar isə buraxılmışdır. R.Bayramovanın fikrincə, yerli kadrlara qarşı inamsızlıq və etimadsızlıq, onların rəhbər vəzifələrə çəkilməməsi vəziyyəti daha da mürəkkəbləşdirirdi[84].

1920-1933-cü illərdə RSFSR hökuməti tərəfindən Azərbaycanda siyasi rəhbərliyi azərbaycanlı olmayan şəxslərə tapşırılmışdır. Beləki, M.C.Bağırova qədər Azərbaycan Kommunist Partiyasına V.İ.Naneyşvili (23 iyul - 8 sentyabr 1920), E.D.Stasova (9 sentyabr - 15 sentyabr 1920), V.E.Dumbadze (15 sentyabr - 24 oktyabr 1920), Q.N.Kaminski (24 oktyabr 1920 - 24 iyul 1921), S.M.Kirov (24 iyul 1921 - 20 yanvar 1926), L.İ.Mirzoyan (21 yanvar 1926 - 11 iyul 1929), N.F.Qikalo (11 iyul 1929 - 4 avqust 1930), V.İ.Polonski (18 avqust 1930 - 6 fevral 1933) və R.Q.Ruben (6 fevral 1933 - 10 dekabr 1933) rəhbərlik etmişdir[85].

Bu yarımfəsildə, Rusiyanın XI ordusunun hərbi təcavüzü nəticəsində 1920-ci il aprelin 28-də Şimali Azərbaycanda Sovet hakimiyyəti qurulduğu, Azərbaycanın təbii sərvətləri – neft, pambıq və s. məhsulları təmənnasız olaraq sovet Rusiyasının nəzarəti altına keçdiyi qeyd olunur. Burada Azərbaycanın idarə olunması və ərazi bütövlüyü məsələsi RSFSR hökumətinin nəzarəti altında həll olunduğu, AXC-nin hakimiyyəti dövründə mühüm dövlət vəzifələrində işləmiş şəxslərə qarşı terror əməliyyatları həyata keçirildiyi, AXC dövründə Nazirlər kabinetinin sədrləri olmuş Fətəli xan Xoyski və Nəsib bəy Yusifbəyli, görkəmli pedaqoq Firidun bəy Köçərli, Parlamentin sədr müavini Həsən bəy Ağayev və başqalarının qətlə yetirildiyi göstərilir.

Dissertasiyanın **"Nəticə"** hissəsində elmi araşdırmanın gedişində əldə olunmuş nəticələr ümumləşdirilir, tədqiqatın məqsəd və vəzifələrindən irəli

---

[83] Rəsulzadə M.Ə. Çağdaş Azərbaycan tarixi. Bakı: Gənclik,1991, 112 s. S. 178-179.

[84] Bayramova R.M.Azərbaycan rəhbərliyində ixtilaflar və daxili siyasi çəkişmələr (1920-1925). Bakı: Elm, 2007, 196 s. S. 13.

[85] Həsənov H.Ə. Nəriman Nərimanovun milli dövlətçilik baxışları və fəaliyyəti. Bakı: Elm, 2005, 248 s. S. 60.

gələn yeni elmi fikir və mülahizələr irəli sürülür.

Şübhəsiz, geniş tarixşünaslıq və mənbə bazası olan problemin araşdırılması ilə əlaqədar bütün məsələlərin bir dissertasiya işində tam həllinin tapıldığını iddia etmək doğru olmazdı. Ona görə də 1917-1920-ci illərin ictimai-siyasi hadisələrini obyektiv, hərtərəfli və elmi cəhətdən yenidən araşdırılması üçün sistemli və müəyyən proqramlar çərçivəsində ardıcıl elmi müzakirələrin keçirilməsi vacibdir.

1917-1920-ci illərin tarixi hadisələrini obyektiv, hərtərəfli və elmi cəhətdən yenidən araşdırılması üçün aşağıdakı təkliflərin əhəmiyyətli olacağı düşünülür:

- Azərbaycan, Türkiyə, Rusiya və Qərb tarixçilərinin sıx əməkdaşlığı şəraitində problemin yenidən öyrənilməsi məqsədəuyğun olardı. Bunun üçün qarşılıqlı elmi əməkdaşlığın genişləndirilməsi zəruridir;
- problemin dərindən, elmi və müqayisəli şəkildə, müəyyən proqramlar çərçivəsində ardıcıl öyrənilməsi üçün müzakirələrin keçirilməsi (konfrans, simpozium və s.) bu sahədə çatışmamazlıqların qismən aradan qaldırılmasına şərait yaratmış olardı;
- Bakı fəhlə və əsgər deputatları Sovetinin fəaliyyətinin daha geniş və hərtərəfli öyrənilməsi üçün elmi-praktik konfransların keçirilməsi yaxşı olardı;
- Bakı Xalq Komissarları Sovetinin yaranması, fəaliyyəti və süqutu ilə əlaqədar olaraq elmi-praktik konfransların keçirilməsi yaxşı olardı;
- 1917-1920-ci illərdə Şimali Azəbaycanda fəaliyyət göstərmiş partiyaların, ictimai təşkilatların tarixinin, yeni arxiv sənədlərini və müxtəlif dövrlərdə yazılmış elmi-tədqiqat əsərlərini cəlb etməklə, təhlil edərək yenidən yazılması məqsəduyğun olardı;
- 1917-1918-ci illərdə mövcud olmuş Milli Şuraların (Müsəlman Milli Şurası, Eston Milli Şurası və s.) Bakının sosial-iqtisadi, mədəni və siyasi həyatında oynadığı rolunun elmi cəhətdən tədqiq olunması zəruridir;
- "Tarixi metod və prinsiplər" probleminə aid elmi-praktik konfransın keçirilməsi yaxşı olardı;
- "Azərbaycan tarixşünaslığı: problemlər və perspektivlər" probleminə aid elmi-praktik konfransın keçirilməsi məqsədəuyğun olardı;
- Azərbaycan tarixinin dövrləşdirilməsi, həmçinin onun tarixşünaslığı ilə əlaqədar olaraq elmi müzakirələrin, konfransların keçirilməsi Azərbaycan tarix elmi üçün olduqca vacibdir.

**Dissertasiyanın əsas məzmunu müəllifin dərc etdirdiyi aşağıdakı əsərlərində öz əksini tapmışdır:**

1. Azərbaycanlıların soyqırımı. Bakı: Nurlan, 2007, 178 s.
2. Şamaxı soyqırımı (mart-aprel 1918-ci il). S.Şaumyanın cinayətkar silahdaşı Stepan Lalayevin törətdiyi kütləvi qətllər. /Azərbaycan xalqına qarşı 1918-ci il Mart soyqırımı. Sənədlər toplusu. Üç cilddə. I cild, Baki: Çaşıoğlu, 2009. 776 s. S.53-61.
3. Şamaxı qəzasında erməni cinayətləri (mart-aprel 1918-ci il). //AMEA Tarix İnstitutu. Elmi əsərləri. 28-ci cild, 2009, səh. 166-172.
4. Bakı Xalq Komissarları Sovetinin antiazərbaycan siyasətinin tarixşünaslığı. //AMEA Tarix İnstitutu. Elmi Əsərlər. 38-ci cild, 2011, səh. 192-199.
5. Bakıda sovet hakimiyyətinin qurulması məsələsi (1917-ci il noyabr – 1918-ci il iyul). //AMEA Tarix İnstitutunun Elmi Əsərləri. 39-cu cild, 2011, s. 79-99.
6. 28 aprel işğalı Rusiya tarixşünaslığında. Tarix İnstitutunun Əsərləri. //AMEA Tarix İnstitutunun Elmi Əsərlər. 2012, 41-43-cü cild, s. 217-226.
7. 1917-1920-ci illərdə Azərbaycanlıların soyqırımı. Bakı: Turxan, NPB, 2013, 239 s.
8. Преступный соратник С.Шаумяна – палач азербайджанцев Степан Лалаев (Лалаян). /Сб. Геносид Азербайджанского народа 1918 года: организаторы и палачи. Баку, ИПО «Турхан», 2013, 272 с.
9. Армянские пристрастия «Института социальных и политических исследований Черноморско-Каспийского региона». //Geostrategiya jur., 2013, № 04 (16), s.18-20.
10. 1917-1918-ci illərdə Bakıda siyasi vəziyyətin öyrənilməsi 1950-ci illərin tədqiqatlarında. //Tarix və onun problemləri. 2014, № 2, s. 367-373.
11. Политическая ситуация в Баку в 1917-1918 гг. в советской историография 1920-х гг. //Вестник Российского Университета дружбы народов. Серия История России. 2014, № 2, с. 66-75.
12. 28 Aprel işğalı Azərbaycan sovet tarixşünaslığında. //AMEA-nın Xəbərləri, Tarix, fəlsəfə, hüquq. 2014, № 1, s. 76-81.
13. Birinci dünya müharibəsi illərində Bakıda bolşeviklərin hakimiyyət uğrunda mübarizəsinin tarixşünaslığı (sovet tarixşünaslığı). /Tarixin qaranlıq səhifələri, keçmişin ibrət dərsləri və gələcəyə çağırış. Beynəlxalq elmi konfransın materialları. Bakı: 2014, s. 37-42.

14. Birinci dünya müharibəsi illərində Bakı quberniyasında azərbaycanlıların soyqırımı. //AMEA Tarix İnstitutunun. Əsərləri, № 48, 49, 50, 2014, s. 341-352.

15. Bakıda 1918-ci il mart spyqırımı. Bakı: "Turxan" NPB MMC, 2014, 220 s.

16. Şamaxı qəzasında Azərbaycan xalqına qarşı soyqırımı. Bakı: "Turxan" NPB MMC, 2014, 120 s.

17. Quba qəzasında Azərbaycan xalqına qarşı soyqırımı. Bakı: "Turxan" NPB MMC, 2014, 96 s.

18. Azərbaycan torpaqlarında erməni cinayətləri (AXC dövrünün sənədləri əsasında). Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası. //Azərbaycan Xalq Cümhuriyyətinin 95 illiyinə həsr edilmiş Respublika elmi konfransın materialları. Bakı: "Elm və təhsil", 2014, s. 117-128.

19. Bakı Xalq Komissarları Sovetinin qurulmasının tarixi (tarixşunaslıq məsələsi). //AMEA-nın Xəbərləri. İctimai, elmlər seriyası. 2015, № 1, s.104-109.

20. 1917-1918-ci illərdə bolşeviklərin hakimiyyət uğrunda mübarizəsi 1960-cı illərin Azərbaycan sovet tarixşünaslığında. //AMEA Xəbərləri. İctimai, elmlər seriyası. 2015, №2, s. 89-95.

21. Bakı ve Yelizavetpol (Gəncə) quberniyalarında türk-müs-lümanların soyqırımı (1918-ci il). //Geostrategiya. 2015, № 03, s. 35-38.

22. 28 Aprel işğalı mühacirət tarixşünaslığında. //AMEA Xəbərləri. İctimai elmlər seriyası, 2015, № 4, s.31- 37.

23. Azərbaycan Xalq Cümhuriyyətinin süqutunun masir Azərbaycan tarixişünaslığında əksi. //AMEA Xəbərləri. İctimai elmlər seriyası, 2015, № 3, s. 40-46.

24. Azerbaycan ve Sovyet Tarihçiliğinde 28 Nisan İşgali. //Yeni Türkiye. Ankara : 2015. № 75, s. 466-472.

25. Azərbaycanın Şamaxı qəzasında türk-müsəlman soyqırımı (1918-1920-ci illər). //AMEA Tarix İns. Xəbərləri, 2015, № 52, 53, 54, 55, s. 126-131.

26. Bakıda türk-müsəlman əhaliyə qarşı ermənilərin törətdikləri soyqırımlarının bolşevik nümayəndələrinin xatirələrində əksi. //AMEA Tarix İnstitutunun Elmi Əsərləri. 2015, № 56, 57, 58, s.325-330.

27. Azərbaycan sovet sosilaist respublikası qurulmasının tarixşünaslığı. Bakı : "Turxan" NPB MMC, 2015, 528 s.

28. 1917-1918-ci illərdə Bakıda bolşevik rejimin qurulmasının müasir Azərbaycan tarix elmində əksi. //Bakı Dövlət Universitetinin Xəbərləri. 2015, № 3, s.108-114.

29. 1917-1918-ci illərdə Şimali Azərbaycanda ictimai-siyasi vəziyyət. //Geostrategiya. 2015, № 06 (30), s. 16-20.

30. Şimali Azərbaycanda bolşevik rejimi qurulmasının N.Nərimanovun siyasi irsində əksi. //AMEA Xəbərləri. İctimai elmlər seriyası. 2016, № 2, s. 52-58.

31. Отражение политических событий 1917-1920 гг. в Северном Азербайджане в современной исторической науке России. //Вопросы истории. 2016, № 8, с.159-163.

32. Bakıda bolşevik rejiminin qurulmasının Qərb tarixşünaslıqda əksi. Dövlət İdarəçiliyi: Nəzəriyyə və Təcrübə. //Azərbaycan Respublikası Prezidentinin yanında Dövlət İdarəçilik Akademiyası. 2016, № 1, s.167-172.

33. Отражение апрельской оккупации 1920 года в советской историографии и историографии Турции. //Geostrategiya, 2016, № 03 (33), s.11-15.

34. 1920-ci ilin aprel işğalının sovet tarixşünaslığında əksi. //Tarix və onun problemləri. 2016, № 2, s. 360-366.

35. Общественно-политическая ситуация в северном Азербайджане в конце первой мировой войны. 1917-1918 гг. Первая мировая (Великая) война 1914-1918 гг.: крупные военные операции. /Материалы международной научно-практической конференции. Rusiya Federasiyası, İnquşetiya Respubliası.30 мая-2 июня 2016 г. с. 3-9.

36. Установление Советской власти в Азербайджане в советской историографии и переписке большевиков. Актуальные вопросы антикризисной политики: теория, история, современность. Сборник статей по материалам международной научно-практической конференции (г. Москва, 28-30 июнь 2016 г.) /Отв.ред. И.В.Турицын.- М.: НИИ ИЭП, 2016.-232, с. 101-105.

37. Əhməd Zəki Vəlidi Toğanın "Tarixdə üsul" əsərində "İslam şərqindəki tarix" anlayışının yeri. //AMEA-nın Xəbərlər. İctimai elmlər seriyası, 2017, № 1, s. 21-25.

38. 1918-1919-cu illərdə Lənkəran qəzasında azərbaycanlıların soyqırım. XX əsrdə türk-müsəlman xalqlarına qarşı soyqırımları. //AMEA Tarix İnstitutunun Elmi Əsərlər. 2017, № 64, 65, 66, s. 67-70.

39. Bolşevik rejiminin qurulması milli tarixşünaslıqda (1940-1950-ci illər). //Geostrategiya, 2017, № 04 (40), s. 29-32.

**V.Sh.Abishov**

## The historiography of the establishment of the soviet power in Northern Azerbaijan

### SUMMARY

Today, one of the priority tasks of the domestic historians is the desire to investigate the political events in North Azerbaijan in 1917-1920 years truly and impartially. From this perspective, this dissertation is of a scientific-practical and political significance.

Over the period past nearly a century since the events of 1917-1920 were written a considerable number of scientific works, interpreting the events that occurred during the investigated period in the South Caucasus in different ways. Today these works need for a comprehensive and objective analysis.

Publication of many previously unknown sources, the rejection of the Marxist-Leninist principles in the evaluation of historical events created the conditions for an objective study of the topic. It should be noted that the thesis is devoted to the topic, not previously studied in a purely historiographic aspect, and therefore is very necessary for Azerbaijan historiography.

In the thesis, through the method of chronological, scientific and comparative analysis has been investigated extensively and deeply the works of historians of different periods and ideological trends connected with the problem. As a result, it has been revealed and reanalyzed many problems of the stereotypical opinions and conclusions previously formed in the historiography.

In the thesis, based on the analysis of the works of Soviet historians, foreign authors-sovietologists, the memoirs of politicians, contemporaries of the events, as well as on the investigations of modern native and foreign historians, it was proved, that in 1917-1920 years of communist ideology did not have wide social and economic and political base in Azerbaijan, was completely alien for Azerbaijanis, and, therefore, was imposed by terror and military expansion.

Structure of the thesis consists of the introduction, four chapters, conclusion and bibliography. This framework favored the most complete study of the problem.

The relevance and degree of studying of the theme is grounded in the

introduction.

In Chapter I of the dissertation the works of Soviet historians related to the problem of the establishment of Soviet power in Azerbaijan in 1917-1918 are subjected to a critical analysis.

In II chapter of the thesis the subject of critical analysis becomes Soviet historiography of the establishment of the Azerbaijan SSR in April 1920.

In Chapter III of the dissertation the problem of establishment of the Soviet power in Azerbaijan in 1917-1920 is analyzed by the pages of foreign historiography and works of the figures of the Azerbaijani political emigration.

In Chapter IV of the thesis the problem of establishment of the Soviet power in Azerbaijan in 1917-1920 is investigated on the basis of works by contemporary Azerbaijani historians.

In the final part of the thesis are made conclusions on the results of the researched problem.

**В.Ш.Абышов**

# Историография установления советской власти в Северном Азербайджане

## РЕЗЮМЕ

Сегодня одной из самых приоритетных задач, стоящих перед отечественными историками, является стремление правдиво и объективно исследовать политические события в Северном Азербайджане в 1917 – 1920 гг. С этой точки зрения, данная диссертация имеет научно- практическую и политическую значимость.

За прошедший почти век с событий 1917-1920 гг. период было написано значительное количество научных работ, по-разному трактовавших события, происходившие в исследуемый период на Южном Кавказе. Эти произведения нуждаются сегодня во всестороннем и объективном анализе.

Публикация многочисленных ранее неизвестных источников, отказ от марксистско-ленинских принципов при оценке исторических событий создали условия для объективного исследования темы.

Необходимо отметить, что диссертация посвящена теме, ранее не изученной в сугубо историографическом аспекте, и поэтому очень актуальной для азербайджанской историографии.

В диссертации, методом хронологического и научно-сравнительного анализа, были всесторонне и глубоко исследованы связанные с проблемой работы историков разных периодов и идеологических направлений. В результате, были выявлены и переосмыслены многие ранее сформировавшиеся в историографии проблемы стереотипные суждения и выводы.

В диссертации, на основе анализа работ советских историков, зарубежных авторов-советологов, мемуаров политических деятелей, современников событий, а также исследований современных отечественных и зарубежных историков, было доказано, что в 1917-1920 годы коммунистическая идеология в Азербайджане не имела широкой социально-экономической и политической базы, была абсолютно чуждой для азербайджанцев, и поэтому была навязана путем террора и военной экспансии.

Структура диссертации состоит их введения, четырёх глав, заключения и списка использованной литературы. Такая структура

способствовала наиболее полному изучению проблемы. Во введении научно обосновываются актуальность и степень изученности темы.

В I главе диссертации критическому анализу подвергнуты работы советских историков, связанные с проблемой установления советской власти в Азербайджане в 1917-1918 гг.

Во II главе диссертации объектом критического анализа становится советская историография образования в апреле 1920 года Азербайджанской ССР.

В III главе диссертации проблема установления советской власти в Азербайджане в 1917-1920 гг. анализируется по страницам зарубежной историографии и работ деятелей азербайджанской политической эмиграции.

В IV главе диссертации проблема установления в 1917-1920 гг. советской власти в Азербайджане исследуется на основе работ современных азербайджанских историков.

В заключительной части диссертации делаются выводы по результатам исследования проблемы.

**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА**
**ИНСТИТУТ ИСТОРИИ ИМЕНИ А.А.БАКЫХАНОВА**

***На правах рукописи***

**АБЫШОВ ВАГИФ ШИРИН оглу**

# ИСТОРИОГРАФИЯ УСТАНОВЛЕНИЯ СОВЕТСКОЙ ВЛАСТИ В СЕВЕРНОМ АЗЕРБАЙДЖАНЕ

Специальность: 5503.02 – Отечественная история
5509.01 – Историография, источниковедение и исторические методы исследования

# А В Т О Р Е Ф Е Р А Т

**диссертации на соискание ученой степени доктора наук по истории**

**БАКУ - 2018**